

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 17 (24.452)
4 may 2025-ci il, bazar

Xüsusi buraxılış
www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Leyla Əliyeva və Arzu Əliyeva Naxçıvana səfər ediblər



Səhifə ➡ 3

## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 235 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsinin 8.7.11-ci yarımbəndinin "Əsas icraçı orqan (qurum)" sütununda "NMR NK" akronimi "ADSEA" akronimi ilə, "Digər icraçılar" sütununda "ADSEA" akronimi "NMR NK" akronimi ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 aprel 2025-ci il*

**Prezident İlham ƏLİYEV:**

*“Mən müharibə başa çatandan dərhal sonra demişəm ki, biz Qarabağı cənnətə çevirəcəyik. Əslində, onsuz da bura öz təbii quruluşuna, gözəlliyinə görə cənnətdir. Amma müasir infrastruktur, yaşayış yerləri, iş yerləri, rahatlıq – bura, doğrudan da, dünyanın ən gözəl yerlərindən birinə çevriləcək. Bura çox böyük coğrafiyadır. Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, “yaşıl enerji” və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir, halbuki bu bizim bölgüyə görə üç regiondur. Amma eyni zamanda bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir.”*



# Şanlı Zəfərin Böyük Qayıdış salnaməsi



*5 il bundan əvvəl hər şey, bəlkə də, əlçatmaz arzu kimi görünürdü bizə. 30 ilin həsrəti, qaçqınlıq həyatı, qaysaq bağlamamış Xocalı yarası üstümüzə qara bulud kimi çökmüşdü. Ta 2020-ci il 27 sentyabr tarixinə kimi... O gün Zəfər yürüşü arzularımızın səsi, susuzluqdan cadar bağlamış torpağın nəfəsi oldu. Müzəffər Ordunun cəsur döyüşçüləri addım-addım, qarış-qarış o torpaqları düşmən tapdağından təmizlədi, üçrəngli bayrağımızın kölgəsində azadlığına qovuşmuş torpaqlar aydınlığa çıxdı. Xalq-dövlət-ordu birliyinin “dəmir yumruğ”a çevrilmiş gücü qarşısında Ermənistanın işğalçı ordusu diz çökdü.*

**5 ilin astanasında**

Qazandığımız şanlı Zəfərin bu il 5-ci ildönümü tamam olur. Ötən beş ilin tarixi gedişatında mühüm hadisələrə şahidlik etdik. 2023-cü il antiterror əməliyyatı ilə Qarabağda erməni separatziminə son qoyuldu və Azərbaycan özünün beynəlxalq aləmdə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Torpaqlara qayıdış günləri tarixiləşdi: 17 oktyabr Füzuli şəhəri günü, 20 noyabr Ağdam şəhəri günü, 26 avqust Laçın şəhəri günü kimi. Bu tarixləri artıq böyük qürur hissi ilə qeyd edirik.

Ölkə başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası hazırda uğurla davam etdirilir. Məcburi köçkünlərin doğma yurdlarına qayıdışı mərhələli şəkildə həyata keçirilir. Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək müəyyən edilmiş beş Milli Prioritetindən biridir. Proqramın birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq. Bu dövr ərzində 140 min köçkünün öz dədə-baba torpaqlarına qayıtması nəzərdə tutulub. Tarixi qələbədən sonra işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə tamamlanmaqda olan Zəngəzur dəhlizinin tikintisi işlərin miqyasını və əhatəliliyini göstərir. Sürətlə aparılan abadlıq-quruculuq işləri, salınan yollar, tikilən məktəb binaları, sosial obyektlər, köçürülən əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən layihələr düşmənin xarabaya çevirdiyi torpaqlara yeni həyat bəxş edir. Və övladlarımızın Xankəndidə fəaliyyət göstərən Qarabağ Universitetində təhsil alması görülən ən böyük işlər sırasındadır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına zəmin yaradıb. Hazırda bu bölgələrdə ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, həyata keçirilən bərpa və quruculuq layihələrində çalışan, həmçinin müxtəlif dövlət qurumlarının yerli strukturlarında xidməti vəzifələrini yerinə yetirən şəxslər, səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye və energetika sahələrində fəaliyyət göstərən mütəxəssislər daxil olmaqla, ümumilikdə, 40 mindən çox insan yaşayır.

***“Elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq”***

Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə hər səfəri bir sıra sosial obyektlərin açılışı, mühüm infrastruktur layihələrinin gerçəkləşdirilməsi, insanların öz el-obasına qayıdışı ilə əlamətdar olur. ***“Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq”.*** Bu il martın 27-də Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında çıxış edən ölkə başçısının bu fikirlərini Ağdamın timsalında yenidən qurulan şəhərlərə, abadlaşan, gözəlləşən bütün yaşayış məntəqələrinə şamil etmək olar. 2022-ci ildə Böyük Qayıdışın ilk ünvanlarından olan Ağalıya köç zamanı da biz aparılan quruculuq işlərində müasir şəhərsalma standartlarının tətbiqinin şahidi olduq. “Ağıllı kənd” layihəsi üzrə görülən işlər göz oxşadı. Düşmənin xarabaya çevirdiyi Ağalının yerində gözəl, abad Ağalı ucaldı, bir də köç edən sakinlərin şən gülüşləri...

Bununla da Böyük Qayıdış digər yaşayış məntəqələrinə də öz töhfələrini verdi. Və bu proses davam etməkdədir.

**Növbəti köç ünvanları**

***“Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar”.*** Bu fikirləri ölkə başçısı İlham Əliyev martın 27-də Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında səsləndirib. Xatırladaq ki, cari ilin ötən dövrü ərzində ölkə başçısı Ağdam şəhərinə səfəri zamanı görülən genişmiqyaslı tikinti işləri ilə tanış olub, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib. Ölkə başçısının iştirakı ilə Xankəndi şəhərində Zəfər parkının təməli qoyulub. Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanışlıq zamanı ölkə başçısı kəndə köçən bir qrup sakinlə görüşüb, onların sevincinə şərik olub.

Mart ayında Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edən ölkə başçısı rayonun Həsənriz kəndinə köçən bir qrup sakinlə görüşüb, bayram tonqalını yandırıb.

Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksi öz sakinlərini qarşılayıb. Quruculuğun növbəti ünvanı mədəniyyət beşiyi olan Şuşa olub. Tarixi Çöl Qala məscidi və bulağı bərpadan sonra istifadəyə verilib. Hazırda Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri öz axarı ilə davam edir. Planlı şəkildə həyata keçirilən bu tədbirlər nəticəsində şəhərlər, qəsəbə və kəndlər abadlaşır, sakinlərinin qayıdışı ilə canlanır.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində aprel ayının 21-i, 29-u və 30-u tarixlərində Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə və Xocalı rayonunun Ballıca kəndinə növbəti köç karvanları yola salınıb. Aprelin 22-də doğma yurduna yola salınan köç karvanı isə Ağdərə rayonunun Həsənriz kəndinə istiqamətlənib. Bu mərhələdə respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış 68 nəfərdən ibarət 20 ailəyə mənzillərin açarları təqdim edilib. Aprelin 28-də Xocalı şəhərində daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş fərdi yaşayış evlərində mənzillər verilib.

Vətən müharibəsində qazanılan zəfər torpaq həsrətimizə son qoydu. Böyük Qayıdışla qaçqın və məcburi köçkünlər həm öz doğma yurd yerlərinə qovuşdular, həm də rahat həyat şəraitinə. Məskunlaşan ailələr bu torpaqlara can verəcək. Evlərdə yandırılan hər işıq illərlə əsarətdə inləmiş torpaqlara günəş kimi doğacaq. Şanlı Zəfərin Böyük Qayıdış salnaməsində yazılan, insanların Vətəninə, dövlətinə, ordusuna minnətdarlıq duyğusu isə azad torpaqlarda böyüyən gənc nəsil üçün örnək olacaq. Düşmənin 30 ildə cəhənnəmə döndərdiyi bu torpaqlar qısa zamanda cənnətə çevriləcək. Həm də bütün dünyanın həsəd aparacağı cənnətə...

**Ruhiyyə RƏSULOVA**

# Leyla Əliyeva və Arzu Əliyeva Naxçıvana səfər ediblər



Mayın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva ailə üzvləri ilə birlikdə Naxçıvan Muxtar Respublikasına səfər ediblər.

Səfər çərçivəsində Naxçıvanın zəngin tarixi-mədəni irsi, unikal memarlıq abidələri, sosial-tibbi reabilitasiya müəssisələri və təbii gözəllikləri ilə yaxından tanışlıq olub.

Səfər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsinin önünə gül dəstəsinin qoyulması ilə başlayıb. Ardınca onlar Heydər Əliyev Muzeyini ziyarət edərək dahi şəxsiyyətin həyat yolunu, siyasi irsini və dövlətçilik fəaliyyətini əks etdirən zəngin eksponatlarla tanış olublar.

Daha sonra Naxçıvanın memarlıq incilərindən olan Möminə xatın türbəsi və Naxçıvan xan sarayı ziyarət edilib, "Əcəmi" seyrəngahında yerləşən açıq səma altındakı muzeyin eksponatlarına baxış keçirilib, xanlıqlar dövrünə aid zəngin maddi-mədəni irs nümunələri ilə tanışlıq olub.





















Ardı 4-cü səhifədə











Proqram çərçivəsində Leyla Əliyeva, Arzu Əliyeva və ailə üzvləri Naxçıvan şəhərində sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən Naxçıvan Uşaq Bərpa Mərkəzinə baş çəkiblər. Onlar burada mərkəzin müxtəlif bölmələri ilə tanış olaraq tibbi reabilitasiya və uşaqlara göstərilən xidmətlərlə yerində maraqlanıblar.

Leyla Əliyeva tərəfindən Uşaq Bərpa Mərkəzinə ayaq və əl reabilitasiyası üçün müxtəlif avadanlıqlar, o cümlədən "Robotic" reabilitasiya əlcəkləri, həmçinin miostimulyasiya və infraqırmızı terapiya cihazları hədiyyə olunub.

Günün sonunda Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Tağıyev: Neft" bədii filminin təqdimat mərasimi olub.

Qeyd edək ki, Bakı Media Mərkəzinin istehsalı olan "Tağıyev: Neft" filmi dahi xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat hekayəsinə həsr olunan "Tağıyev" filminin birinci hissəsidir.











# Leyla Əliyeva və Arzu Əliyevanın Naxçıvan səfəri Ordubad rayonunda davam edib

Mayın 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ailə üzvlərinin Naxçıvan Muxtar Respublikasına səfəri Ordubad rayonu və ətraf bölgələri əhatə etməklə davam edib.

Səfərin ikinci günündə onlar qədim tarixə, zəngin mədəniyyətə və unikal coğrafi landşafta malik olan bu regionun irsi ilə daha yaxından tanış olublar.

Səfər çərçivəsində ilk olaraq Leyla Əliyeva və Arzu Əliyeva Naxçıvanın mənəvi-simvolik məkanlarından biri sayılan, dini-tarixi baxımdan mühüm əhəmiyyət kəsb edən Əshabi-kəhf ziyarətgahına baş çəkiblər. Burada onlar "Damcıxana" və ziyarətgah ərazisində yerləşən müxtəlif müqəddəs yerlərlə tanış olub, ziyarətə gəlmiş yerli sakinlərlə səmimi söhbətlər aparıb, xatirə şəkilləri çəkdiriblər.





Daha sonra Ordubad şəhərinə yola düşərək bir sıra tarixi, dini və mədəni obyektlərlə tanış olublar. İlk olaraq şəhərin simvollarından biri olan Ordubad Cümə məscidi ziyarət edilib. Ardınca "Qeysəriyyə" Tarix-Diyarşünaslıq Muzeyində Ordubadın tarixi, mədəni irsi və sənətkarlıq ənənələrini əks etdirən eksponatlara baxış keçirilib.

Səfər Sərşəhər küçəsində yerləşən bir sıra mədəni abidələrin ziyarəti ilə davam edib. Leyla Əliyeva və Arzu Əliyeva tarixi əhəmiyyətə malik Sərşəhər məscidi ilə tanış olublar.

Daha sonra Sərşəhər meydanındakı orqanik bazarda Ordubadın özünəməxsus yerli məhsulları, müxtəlif növ milli şirniyyatlar, mürəbbələr, quru meyvələr, bitki ekstraktları, dərman bitkiləri, bal və arı məhsulları, həmçinin Ordubada məxsus qayğanaq və məşhur Ordubad limonu təqdim olunub. Həmçinin meydanda yerləşən və əsrlərlə yaşı olan qədim çinar ağacı Ordubadın təbiət və tarix vəhdətini əks etdirən rəmzlərdən biri kimi vurğulanıb. Gəzinti zamanı onlar meydan ərazisində yerli sakinlərlə xoş ünsiyyət qurub, xatirə şəkilləri çəkdiriblər.

Ardınca Leyla Əliyeva və Arzu Əliyeva Ordubad rayonunun Vənənd kəndində yaşayan Əkbərovlar ailəsinin qonağı olublar. Onlar ailənin limonçuluq üzrə fəaliyyət göstərən kiçik aqrotəsərrüfatına baş çəkib, burada xüsusi qulluqla yetişdirilən Ordubad limonu və onun becərilmə prosesi ilə yerində tanış olublar.





















# Leyla və Arzu Əliyevaların Naxçıvan səfəri: *tarixə, təbiətə və insana dəyər*





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qızları Leyla Əliyeva və Arzu Əliyeva ikigünlük səfərlə Naxçıvan Muxtar Respublikasında oldular. Bu səfər rəsmi ziyarətdən çox, mənəvi bağların, ailə irsinin və dəyərlərə bağlılığın nümayişinə çevrildi. Naxçıvanlılar onları böyük məhəbbətlə qarşıladılar, hər addımda doğmalıq və hörmət hiss etmək çətin deyildi.

### *Ziyarətin ilk ünvanı – Heydər Əliyev Muzeyi*

Səfərin ilk ünvanı Heydər Əliyev Muzeyi oldu. Leyla xanımın və Arzu xanımın burada babasının həyat və fəaliyyətinə dair eksponatlarla tanışlıq zamanı eksponatlara qürur və hörmətlə baxması sevindirici idi. Bu ziyarət baba ilə mənəvi bir görüş, nəvələrin xatirəyə səssiz söhbəti kimi yadda qaldı. Leyla xanımın baxışlarında həm iftixar, həm də dərin bir bağlılıq hiss olunurdu.

### *Möminə xatın türbəsi – tarixi dəyərlərə hörmət*

Leyla xanım Möminə xatın türbəsini də ziyarət etdi və bu tarixi abidə qarşısında xatirə fotosu çəkdirdi. Qadın ucalığının, gücünün və zəkasının simvolu olan bu məkan önündə onun dayanması sanki tarixlə bu gün arasında bir dialoqun ifadəsi idi.









### *Əshabi-kəhfdə ruhani duyğular və təbiətlə bağ*

Naxçıvanın müqəddəs yerlərindən biri olan Əshabi-kəhf ziyarətgahına səfər mənəvi baxımdan dolğun məqamlarından biri kimi yadda qaldı. Leyla xanım burada insanlarla səmimi ünsiyyət qurdu, uşaqlarla maraqlandı və təbiətlə təmasda oldu. Onun kəpənəklə çəkdirdiyi şəkil təbiətə və yaşama olan hörmətin incə bir simvoluna çevrildi.

### *Ordubadda ailələrlə görüşlər*

Ordubad rayonuna səfər çərçivəsində Leyla xanım və Arzu xanım kənd sakinləri ilə görüşdülər, ailələrin süfrəsində əyləşdilər. Yerli mətbəxə və kənd həyatına göstərilən bu maraq onların xalqla bir nəfəsdə olduqlarını bir daha nümayiş etdirdi.



### *Həssas qayğı*

Səfər çərçivəsində Arzu xanım və Leyla xanım Naxçıvan şəhərində fəaliyyət göstərən Uşaq Bərpa Mərkəzini də ziyarət etdilər. Onlar burada müalicə və reabilitasiya alan uşaqlarla maraqlandılar, şəraitlə tanış oldular, onlara tibbi və sosial xidmətlərin səviyyəsi ilə bağlı ətraflı məlumat verildi. Uşaqlarla səmimi söhbət edən Leyla xanım və Arzu xanım onların sevincini, arzu və ümidlərini bölüşdülər. Bu ziyarət onların cəmiyyətin ən həssas təbəqəsinə – sağlamlıq imkanları məhdud uşaqlara olan diqqət və qayğısını əks etdirdi.

Səfərin hər anında uşaqlara göstərilən diqqət xüsusi vurğulandı. Leyla xanım və Arzu xanımın uşaqlarla yaxın ünsiyyəti, səmimiyyəti və təbəssümü onları cəlb etdi. Bu münasibət, sadəcə, mərhəmət deyil, gələcək nəsillərə göstərilən etimad və sevgi kimi qəbul edildi.





### *Heydər Əliyev ruhu bu torpaqda yaşayır*

Bu səfərin hər anında bir ruh dolaşırdı bu torpaqla, tarixlə, xalqla bağlılıq ruhu. Hər məkan, hər addım sanki bir xatirəni oyadır, bu torpağın yaddaşında yaşayan böyük bir şəxsiyyətin izlərini xatırladırdı. Leyla xanımın və Arzu xanımın baxışlarında, hərəkətlərində, insanlara yaxınlığında elə bir sakitlik və əminlik var idi ki, bu təkcə onların öz şəxsiyyətindən doğmurdu – bu həm də böyüdükləri ailənin, aldıqları tərbiyənin, üzərlərində daşıdığı adın məsuliyyətindən gəlirdi.

Hər davranışlarında Ulu Öndər Heydər Əliyevin mənəvi irsinin izləri görünürdü: sadəliklə böyüklüyün, xalqla bir olmanın, Vətənə sevgini hər şeydən uca tutmağın əksi... Bu, içdən gələn bir tərbiyə, dərin bir mənəvi kodun təzahürü idi.

Naxçıvan – Heydər Əliyevin siyasi və mənəvi baxımdan dirçəlişinə şahidlik etmiş torpaq – bu gün Onun ailəsinin nümayəndələrini qarşılayarkən elə bil, öz keçmişini, öz liderini yenidən qucaqlayırdı. Muzeydə baxılan eksponatlar, Möminə xatın türbəsi önündə çəkilən şəkil, çinar ağacının kölgəsində dayanmaq, kənd süfrəsində əyləşmək – bunlar, sadəcə, hadisələr yox, bir ruh halının ifadəsi idi.

Naxçıvanda Heydər Əliyev təkcə bir siyasi lider kimi yox, həm də bir ata, bir vətəndaş, bir ideya daşıyıcısı kimi xatırlanırdı. Və bu yaddaş quru tarix deyil, yaşayan, nəfəs alan, hər addımda hiss olunan mənəvi dayaq idi. Bəlkə də, elə bu səbəbdən bu səfər təkcə bir rəsmi ziyarət deyildi – bu həm də nəvələri ilə səssiz dialoqu, xalqla eyni ruhda görüşməsi və gələcəyə inamla baxması idi. Çünki bu torpaqda yaşayan ruh təkcə keçmişi deyil, sabahı da işıqlandıran bir ruhdur. Və bu ruh Heydər Əliyev ruhudur.

**"Şərq qapısı"**

# Naxçıvanda Hərracların Təşkili Mərkəzi istifadəyə verilib



Aprelin 29-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin binasının açılışı olub. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açılış tədbirində iştirak edib.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin inzibati binasının foyesində Ümummilli Lider Heydər Əliyevin büstü önünə güllər qoyulub, dahi rəhbərin xatirəsi ehtiramla anılıb.

Nazirliyin binasında yeni yaradılmış şəraitlə tanışlıq olub. Məlumat verilib ki, foyedə Heydər Əliyev guşəsi yaradılıb, giriş və çıxışlara operativ nəzarət edilməsi məqsədilə turniket sistemləri quraşdırılıb. Həmçinin müasir standartlara cavab verən iclas zalı, vətəndaşların qəbulu otağı qurulub, iş otaqları müasir ofis mebelləri və avadanlıqlarla təchiz edilib. İclas zalında quraşdırılan interaktiv monitor görüş və tədbirlərin daha effektiv keçirilməsini təmin edir. Nazirliyin vətəndaşların qəbulu otağında daha yüksək xidmət keyfiyyəti və təhlükəsizlik standartlarının təmin edilməsi məqsədilə səsyazan kamera və monitor quraşdırılıb.

Hərracların Təşkili Mərkəzinin açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycanın davamlı inkişaf modelinin tərkib hissəsi olan Naxçıvanda həyata keçirilən sistemli islahatların və sosial-iqtisadi layihələrin iqtisadi münasibətlərin müasirləşdirilməsinə və şəffaflığın təmin olunmasına xidmət etdiyini vurğulayıb. Bildirib ki, bu siyasətin növbəti təzahürü olan “Hərracların Təşkili Mərkəzi” publik hüquqi şəxsin yaradılması da məhz bu məqsədlərə yönəlmiş əhəmiyyətli addımdır. Mərkəzin fəaliyyəti muxtar respublikada şəffaf iqtisadi mühitin formalaşmasına, sahibkarlığın inkişafına və səmərəli idarəetmənin təmininə mühüm töhfə verəcək.

Muxtar respublikanın bugünkü iqtisadi inkişaf dinamikasının qürurverici göstəricilərlə müşahidə olunduğunu diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, 2025-ci ilin yanvar-mart aylarında ümumi daxili məhsulun həcmi 344 milyon 310 min 200 manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artım nümayiş etdirib. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 730,7 manat olmaqla, 0,6 faiz artıb. İnfrastrukturun yenilənməsi istiqamətində də əhəmiyyətli addımlar atılıb, əsas kapitala yönəldilən vəsait 42,3 faiz artaraq 43 milyon 60 min 900 manat təşkil edib, tikinti-quraşdırma işlərinə 29 milyon 843 min 400 manat sərf olunub. Bu da Naxçıvanda yeni sənaye, xidmət və sosial obyektlərin sürətli inkişafını təmin edir.

Səlahiyyətli nümayəndə bildirib ki, bu reallıqlar Naxçıvanın inkişafına yönəlmiş 2023-2027-ci illər üçün Dövlət Proqramının uğurla icra olunduğunu göstərir. Həmin proqram çərçivəsində Naxçıvanın iqtisadi potensialı daha da gücləndirilir, innovativ təşəbbüslərə geniş meydan açılır. Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvanın regional və beynəlxalq iqtisadi proseslərdə rolu daha da artacaq, sənaye parkları və yeni yaradılan müəssisələr Orta Dəhlizin yeni seqmenti kimi fəaliyyət göstərəcəkdir.

Fuad Nəcəfli mərkəzin yaradılması münasibətilə hər kəsi təbrik edib, yeni fəaliyyətə başlayan mərkəzin kollektivinə uğurlar arzulayıb.



Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Abbas İsmayılov İqtisadiyyat Nazirliyində və onun strukturlarında elektron informasiya sistemlərinin yaradılması istiqamətində həyata keçirilən işlər barədə məlumat verib. Qeyd edib ki, nazirliyin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara, o cümlədən sahibkarlara göstərilən 190 dövlət xidmətinin 110-u elektronlaşdırılıb. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və onun tabeli qurumları tərəfindən istifadə olunan 16 informasiya sistemindən 9-u Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi və tabeli qurumları ilə inteqrasiya olunub. Nazirliyin fəaliyyətində rəqəmsallaşmanın sürətləndirilməsi və sənəd dövriyyəsinin optimallaşdırılması istiqamətində mühüm addımlar atılır. Bu sistemlər idarəetmə proseslərini daha şəffaf, sürətli və səmərəli edəcək. Bu məqsədlə hazırda daxili sənəd dövriyyəsinin elektron əsasda qurulması işləri aparılır və işlər başa çatdıqdan sonra Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə inteqrasiya təmin ediləcək. Nazirlik tərəfindən vətəndaşlara rəsmi internet səhifəsi vasitəsilə yeni elektron xidmətlərin təqdim olunması istiqamətində də işlər aparılır.

Nazir müavini, həmçinin “Vətəndaşların şifahi müraciəti” modulu və nazirliyin strukturuna daxil olan qurumlarda tətbiq olunan informasiya sistemləri barədə də məlumatları təqdim edib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifələrini icra edən Müslüm Cabbarzadə “Naxçıvanda hərracların təşkili: müasir inzibatçılıq və şəffaflaşma” mövzusunda məlumat verib, mərkəzin binasında aparılan yenidənqurma işlərini əks etdirən videoçarx nümayiş etdirilib.

Sonra Hərracların Təşkili Mərkəzinin inzibati binası ilə tanışlıq olub. Məlumat verilib ki, mövcud binada geniş təmir və yenidənqurma işləri aparılıb. Binanın fasadı və daxili hissəsi modern üslubda təmir edilərək müasir ofis mebelləri ilə təchiz olunub. Mərkəzin dizaynı yalnız estetik baxımdan deyil, funksionallıq baxımından da yüksək səviyyədə qurulub. Burada iştirakçılar üçün rahat, əlçatan və texnologiya ilə inteqrasiya olunmuş mühit yaradılıb. İclas zalı müasir multimedia vasitələri ilə təmin olunub, elektron hərracların keçirilməsi üçün monitorlar quraşdırılıb. Elektron hərrac proqram təminatı istifadəyə verildikdən sonra iştirakçılara veb-tətbiq və istifadəçi interfeysi vasitəsilə təklif vermək imkanı yaradacaq. Bu isə hərrac proseslərinin operativliyini təmin edəcək, dövlət və bələdiyyə büdcələrinə daxilolmaları artıracaq, özəl sektorun inkişafına, iqtisadi aktivliyin artmasına və ümumilikdə, iqtisadiyyatın sağlamlaşdırılmasına mühüm töhfə verəcək.

Sonda xatirə fotosu çəkdirilib.

# Naxçıvanda Sahibkarlar Gününə həsr olunmuş tədbir keçirilib



Aprelin 30-da Naxçıvanda “Konstitusiya və Suverenlik İli” və 25 aprel – Sahibkarlar Gününə həsr olunmuş “Konstitusiya və suverenlik – Naxçıvanda sahibkarlığın inkişafı” mövzusunda tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək qeyd edib ki, 2025-ci ilin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Konstitusiya və Suverenlik İli” elan olunması dövlət müstəqilliyinin, siyasi sabitliyin və iqtisadi təhlükəsizliyin bir daha prioritet elan edilməsidir. Bu eyni zamanda dövlətçilik ənənələrinin möhkəmləndirilməsi ilə yanaşı, güclü iqtisadi baza üzərində qurulan müasir Azərbaycan modelinin davamlı inkişafına da açıq mesajdır. Bu modelin əsas sütunlarından biri isə, şübhəsiz ki, sahibkarlıqdır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bu ərazilərdə iqtisadi fəallığın yüksəldilməsi, sahibkarlığın genişlənməsi və əhalinin rifahının artırılması istiqamətində mühüm yol xəritəsi olub. Dövlət Proqramı çərçivəsində Naxçıvan Sənaye Parkının yaradılması, yeni nəqliyyat infrastrukturlarının formalaşdırılması, turizm, kənd təsərrüfatı və xidmət sahələrinin inkişafı istiqamətində əhəmiyyətli işlər görülməkdədir.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Prezidentinin imzaladığı “Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” Sərəncam, “yaşıl enerji” istifadəsi, ekoloji baxımdan dayanıqlı şəhərsalma və innovativ texnologiyaların tətbiqinə xüsusi diqqət ayrıldığını göstərir. Bu sahədəki fəaliyyətlər həm də sahibkarlara yeni xidmət və istehsal imkanları qazandırır. Həmçinin Zəngəzur dəhlizinin işə düşməsi ilə muxtar respublika, eyni zamanda Orta Dəhliz vasitəsilə Çindən Avropaya qədər uzanan nəqliyyat şəbəkəsinin vacib qovşaqlarından birinə çevriləcəkdir. Dövlət başçımızın bir neçə gün əvvəl Çin Xalq Respublikasına rəsmi dövlət səfəri və İran İslam Respublikasının Prezidentinin ölkəmizə səfəri Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu səfərlər zamanı müzakirə olunan layihələr ölkəmizin, xüsusilə də Naxçıvanın regionlararası ticarət, enerji, nəqliyyat və investisiya mərkəzinə çevrilməsinin də sürətləndirəcək.

Yaradılan imkanlardan maksimum istifadə edərək yerli və regional iqtisadiyyatda özəl sektorun payını artırmaq, yeni iş yerləri yaratmaq və əhalinin rifahını yüksəltməyi qarşıda duran əsas hədəf kimi müəyyənləşdirən Fuad Nəcəfli bu yolda bütün sahibkarlara uğurlar arzu edib.



Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov bildirib ki, ölkəmizin hərtərəfli inkişaf strategiyasında iqtisadiyyatın inkişafı xüsusi yer tutur. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində sahibkarlığın da inkişafı mühüm amildir. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətdə bu məsələ daim diqqət mərkəzində saxlanılır. Ulu Öndərimizin müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında da iqtisadi inkişaf, azad sahibkarlıq hüququ kimi mühüm məsələlər öz təsbitini tapıb. Baş nazir qeyd edib ki, hazırda icrası davam etdirilən Dövlət Proqramında müəyyənləşdirilən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, infrastruktur təminatının, sosial sektorun, insan kapitalının inkişafı, elektrik enerjisi istehsalının və ixracının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi prioritet istiqamətlər həm də sahibkarlar üçün yeni investisiya imkanları yaradır.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Abbas İsmayılov ötən dövrdə muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində həyata keçirilmiş islahatlar barədə məlumat verib. Qeyd edib ki, 2023 və 2024-cü illərdə yumşaq keçid tətbiq edilib, vergi nəzarəti tədbirləri minimuma endirilib və bu proses cari ildə də davam etdirilir. Yaradılmış əlverişli biznes mühiti, tətbiq edilmiş müasir vergi inzibatçılığı və sahibkarların adekvat geri dönüşü nəticəsində müsbət dəyişikliklər baş verir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2024-cü ildə 38 layihə maliyyələşdirilib. 2025-ci ilin yanvar-aprel aylarında maliyyələşdirilən



layihələrin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 dəfə, maliyyələşdirilmiş güzəştli kreditlərin məbləği isə 6,5 dəfə artıb. Verilmiş kreditlər hesabına 63 yeni iş yerinin açılması imkanı yaranıb. Fondun güzəştli vəsaitlərinin əhəmiyyətli hissəsi regionların inkişafına xidmət edən layihələrə yönəldilib. Belə ki, 2025-ci ilin cari dövründə maliyyələşdirilmiş güzəştli kreditlərin 12 faizi Naxçıvan şəhərinin, 88 faizi isə regionların payına düşüb. Fondun ehtiyatları hesabına sahibkarlıq subyektlərinə müəyyən edilmiş prioritet istiqamətlər üzrə 2025-ci il ərzində 25 milyon manatadək maliyyələşdirilmə hədəflənib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini icra edən Fərid Bağırzadə çıxışında qeyd edib ki, muxtar respublikada iqtisadiyyatın və sahibkarlığın inkişafına yönəldilmiş tədbirlər nəticədə əhalinin məşğulluğunun artmasına təkan verib. Həmçinin vurğulanıb ki, 2017-2022-ci illər ərzində, ümumilikdə, 1332 nəfər özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin olunmuşdursa, 2023-cü ildən etibarən bu say artırılaraq 1710 nəfərə çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası idarə heyətinin sədri Vüqar Abbasov, sahibkarlardan Teymur Rzayev və Əfqan İsmayılov çıxış edərək muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində atılan addımların bəhrələrindən bəhs edib, qarşıda duran hədəflərdən danışıblar.

Tədbirdə Sahibkarlar Gününə həsr olunmuş film nümayiş etdirilib.

Sonra investorlar üçün nəzərdə tutulmuş “İnvest in Nakhchivan” adlı təşviqat xarakterli veb-səhifəsinin təqdimatı olub.

Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu İdarə Heyətinin sədri Vüsal Novruzov “Naxçıvanda biznesə güzəştli maliyyə dəstəyi” mövzusunda təqdimat edib.

# “Tağıyev: Çar” filmi Ordubadda nümayiş etdirilib

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ordubad Rayon Mədəniyyət Sarayında Hacı Zeynalabdin Tağıyevin həyat hekayəsinə həsr olunan “Tağıyev: Çar” bədii filminin təqdimat mərasimi keçirilib.

Azərbaycanın layiqli övladı, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş “Tağıyev” bədii filminin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlı, operatoru Vladimir Artemyev, rəssamı Səbuhi Atababayev, geyim rəssamı Vüsal Rəhim və bəstəkarı Etibar Əsədlidir. Xalq artistləri Pərviz Məmmədrzayev, Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Elşən Rüstəmov və Natəvan Hacıyeva da olmaqla geniş peşəkar aktyor heyəti filmdə tarixi personajları canlandırıb.








Azərbaycan tarixinin tanıdılması və milli dəyərlərimizin təbliğində vacib əhəmiyyət kəsb edən 4 hissəli filmin ilk bölümü “Tağıyev: Neft” məhz böyük xeyriyyəçinin vəfatının 100 illiyində, 2024-cü ildə təqdim olunub. Filmin ilk hissəsi ilin əlamətdar mədəniyyət hadisəsinə çevrilib və ölkə kinoteatrlarında yayımlanaraq 70 mindən çox tamaşaçı kütləsi toplaya bilib. Eyni zamanda bədii filmin ilk hissəsi dünyaca məşhur “Dehancer Colourist Awards 2024” festivalına qatılaraq keyfiyyətli rəng korreksiyalı tammetrajlı film nominasiyasının qalibi olub.

Təqdimatı keçirilən “Tağıyev:Çar” filmin ikinci hissəsidir. Filmdə XIX əsrin sonu, XX əsrin əvvəlində Bakı və regionda baş verən mühüm tarixi hadisələr işıqlandırılır.






Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun da iştirak etdiyi tədbirdə çıxış edən filmin prodüseri, Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyev filmin təqdimatına göstərilən dəstəyə görə təşəkkür edib, bundan ilhamlanaraq növbəti filmlərlə yenidən Naxçıvanda izləyicilərlə görüşə gələcəklərini qeyd edib.

Filmin rejissoru Zaur Qasımlı çıxış edərək filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə, o cümlədən sponsorlara təşəkkürünü bildirib.

Qeyd edək ki, “Tağıyev” silsilə filmi Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi, “Neqsol” Holding, “Kapital Bank”, “Bakcell” və “Norm” şirkətlərinin sponsorluğu ilə Bakı Media Mərkəzi tərəfindən istehsal olunub.

## “Tağıyev: Neft” filminin rejissoru Zaur Qasımlı: *“Fikirləşirəm ki, belə bir qarşılanmadan sonra biz buraya bir daha qayıdacağıq”*




“Mən ilk dəfədir, Naxçıvanda oluram və çox şadam. Sakinlər bizi çox isti münasibət, qonaqpərvərliklə qarşılayaraq böyük hörmət göstərirlər. Çox bəyəndik buranı. Eləcə də təşkilatçılıq çox yüksək səviyyədədir”.

Bu sözləri “Şərq qapısı”na müsahibəsində “Tağıyev: Neft” filminin rejissoru Zaur Qasımlı deyib.

O qeyd edib ki, iki gündür, burada film nümayiş etdirilir. Birinci hissə Naxçıvan şəhərində, ikinci hissə isə Ordubadda göstərildi.

“Çox gözəl təəssüratlar var. Deyim ki, tamaşaçılarla istehsalçılar arasında çox yaxşı təmas var. Filmə də böyük maraq var. Hacı Zeynalabdin Tağıyevi çox adam sevdiyi üçün filmə də maraq yaranır. Digər bölümlər də artıq çəkilir. Üçüncü hissəni payız aylarında təqdim edəcəyik. Dördüncü hissə isə ilin sonlarına nəzərdə tutulub. Mən fikirləşirəm ki, belə bir qarşılanmadan sonra biz buraya bir daha qayıdacağıq. Üç və dördüncü hissələri tamaşaçılara nümayiş etdirəcəyik”, – deyə Zaur Qasımlı əlavə edib.

# “Tağıyev” filmi – səbir və əzmin zəfəri

Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Sarayında “Tağıyev: Neft” bədii filminə tamaşa etdik. Bakı Media Mərkəzinin istehsalı olan və dahi xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyatına həsr olunan bu ekran əsəri “Tağıyev” filminin birinci hissəsidir. Filmi izləmək bizim üçün yalnız tarixi bir hadisəyə şahidlik deyil, həm də mənəvi bir təcrübə oldu.



Filmin nümayişi zamanı sarayda xüsusi bir aura hökm sürürdü. Qeyd etmək istərdim ki, filmi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, onların ailə üzvləri, filmin yaradıcı heyəti və aktyorlarla birlikdə izləmək bu təəssüratları daha da dərinləşdirdi. Bu, bir tamaşadan daha çox milli irsə hörmətin təntənəsinə çevrildi.

Film başladığı andan bitənədək zalda tam bir səssizlik hökm sürürdü. Hər kəsin nəfəsini içində tutaraq izlədiyi bu ekran əsəri, sözün əsl mənasında, duyğulara toxunur və yaddaşlara həkk olunur. Zaman necə keçdi, filmin necə sona çatdığını belə hiss etmədik. O qədər dolğun və təsirli idi ki, saatlarla film haqqında danışmaq olar. Amma mən bir tamaşaçı olaraq məhz ürəyimə toxunan bir neçə əsas məqamı bölüşmək istərdim:

“Tağıyev” filmini izləyərkən, sadəcə, bir tarixi şəxsiyyətin həyatına baxmırıq. Biz orada bir insanın inamla, əzmlə, səbir və qətiyyətlə dolu həyat yoluna şahid oluruq. Xüsusilə ilk hissədə yer alan neft qazıntıları epizodu mənim üçün çox təsirli oldu. Aylarla davam edən qazıntılar, çıxmayan neft, maddi çətinliklər, insanların ümidsizliyi… Hər şeyə rəğmən, Tağıyev yalnız bir şeyə arxalanırdı: öz inamına.

Ətrafındakı hər kəs ümidsizliyə qapıldığı, hər kəs geriyə çəkildiyi bir vaxtda o, inamını qorudu. Bu inam o qədər güclü idi ki, ailəsinin evini belə girov qoymaqdan çəkinmədi. O, hər şeyini riskə atdı, çünki içində bir səslə yaşayırdı: “Əgər bu yoldan dönsəm, heç nə dəyişməyəcək”. Bu əzmkarlıq, bu sonsuz inancla dolu ruh, nəhayət, öz bəhrəsini verdi – neft fontan vurdu və hər şey dəyişdi. Bu yalnız maddi zəfər deyildi. Bu, mənəvi qalibiyyət idi.

Bu səhnələr mənə çox dərin bir dərs verdi: Həyat hər zaman dərhal cavab vermir. Bəzən sən illərlə səbirlə, səssizcə gözləməli, inanmalı və mübarizə aparmalısan. Tağıyev üçün neft, sadəcə, zənginlik deyildi, gələcək nəsillərin, xalqının rifahı naminə atılmış addımların başlanğıcı idi. O yalnız özünü düşünmürdü, bir millətin inkişafı üçün yol açırdı.

Bu film mənə öyrətdi ki, insan bəzən mübarizəsində tək qalır. Amma əgər içində inamı və məqsədə bağlılığı varsa, o, heç vaxt əsl mənada tək deyil. İnam və əzm gec-tez mükafatını verir. Və Tağıyev bu inamın canlı sübutudur.

“Tağıyev: Neft” filmi təkcə tarixə baxış deyil, həm də bugünkü gəncliyə, xüsusilə gələcək liderlərə bir yol xəritəsidir. Hər bir azərbaycanlının bu filmi izləməsi, bu böyük şəxsiyyətin irsindən ilham alması vacibdir”.

Filmin növbəti bölümlərini səbirsizliklə gözləyir və bu möhtəşəm əsərə imza atan bütün yaradıcı heyətə dərin təşəkkürümü, ürəkdən gələn uğur arzularımı bildirirəm.

**Sara ƏZİMOVA**
*“Şərq qapısı” qəzetinin baş redaktoru*

# Atabəy yadigarı, qadın ucalığı, şərəf simvolu



## Möminə xatın

### Qadın ucalığı

Sən, ey zərif qızıl telli, iffətli qadın. Sən, ey ustadının sənətkarlığı ilə qarşında aciz qaldığı məğrur qadın. Sən, ey daşlara hopub, kövrəkliyini qapı başında gizlədən naxışlar səltənəti. Mahiyyətin necə dərin və məzmunlu, əzəmətin necə də əsrarəngiz və ecazkardır. Sən əsrlər əvvəl hamarlaşıb daşlara gömülmüş, bənzərsiz naxışlarla ehtiva olunmuş Atabəy yadigarı Möminə xatınsan artıq. Sən gözləri oxşadığın kimi könüllərə də sevinc və firavanlıq gətirirsən. Ziyarətinə gələnlərə məsudluq və məmnunluq bəxş edirsən. Əzəmətli görünüşünlə səni seyrə dalanların qəlbinə sirayət edir, gözlərində ucaldıqca ucalır, gözəlliyinlə hər kəsi heyran edirsən. Sən təkcə abidə deyil, həm də dövrün alimlərinin riyazi biliklərini əks etdirən qiymətli sənət əsərisən. Sən bizə öyrətdin sənətkarın alim, alimin isə eyni səviyyədə sənətkar olduğunu. Elmlə sənət arasında körpü sənsən, Möminə ana. Sənsən Nizaminin Fərhadına Evklid həndəsəsinin sirlərini açan alim, daşlarla çin nəqşi çəkən zərif duyğulu memar.

Nə zaman ki bu əsrarəngiz seyrəngaha üz tuturam, ovsununa düşürəm Möminə ananın. 11 ildən artıq müddətdə kərpic-kərpic ucalan bu şərəf simvolu 800 ildən artıqdır ki, qadın ucalığına xidmət edir. Əlimi uzatsam əlim çatacaq, səsimi ucaltsam, ünümün yetəcəyini düşünürəm sanki bu daş heykəlli evin sahibinə. Duyuram ayaq səslərini, duyuram ucalardan uca bu əzəmətli qadının isti nəfəsini. Savaşlarda əzizlərini itirmiş bu qadının baxışlarında ucalıq baş tacı olub. Humanizm timsalına çevrilən bu məqbərə əsrlərdir, öz məğrur duruşuyla gələni-gedəni özünə valeh edib. Qədim Şərqin, əsasən də, Qahirənin və Bağdadın memarlıq nümunəsi bizə nə qədər vahiməli və qorxunc görünsə də, Möminə ananın məqbərəsi bizə bir o qədər zərif və incə görünür. Atabəy Eldənizin arxasındakı ən böyük güc övladlarının məsləhətçisi, sarayda və dövlət idarəçiliyində yüksək məqam sahibi, ən əsası isə qadın sultan hesab edilən Möminə xatın məqbərəsinin qarşısında dil susur, ürək danışır, ürək susur, göz danışır. Ayaq sözə baxmır, bir güc nədənsə bizi sürükləyir bu tarix qoxan məkana.

Möminə ana! Sən bilirsən, zaman-zaman üzünə qalxan yağı əllərin sanki xilqətindən yaranmış zinət qarşısında kəsilərək torpağa düşdüyünü. Sən bilirsən, səni qoruyanın əliaçıqlığın, mehribanlığın və xeyirxahlığının olduğunu. Möminə ana, alqış sənə ki qüdrətin və zərifliyin qarşısında düşməni ovsunlayaraq özünü qorumusan. Möminə ana, alqış sənə ki qadının qul kimi rəftar olunduğu dövrdə Atabəyin şəninə tayı-bərabəri olmayan məqbərə ucaltdı. Möminə ana, alqış sənə ki dünyaya Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan kimi igid sərkərdə bəxş etdin. Möminə Ana! Alqış memarın Əcəmi Əbubəkr oğluna ki səni əlçatmaz, ünyetməz göylərə dayaq edərək bu gözəl günlərə çatdırıb. Etdiyin bütün xeyirxahlıqların nəticəsidir ki, bu gün uğurlu taleyinlə fəxr edir, ucaldıqca ucalırsan. Sən artıq qədirbilən xalqın qayğılı əllərində isti ocaq, həzin musiqi, milli kimlik, milli qürur, and yeri, şərəf simvolusan.

### Şərəf simvolu

Bu əzəmətli abidənin, qadına verilən sultan və ər dəyərinin, bu ülvi sənətin önündə insan istər-istəməz baş əyir. İllərin bu əvəzsiz yadigarına insan qəlbən nəvaziş dolu səcdələr bəxş edir. Duruşundakı naxışlar sanki həzin musiqinin harmoniyası ilə vəhdət təşkil edir. Məğrurluğunla həmahəng olan bu harmoniya, bəlkə də, illərin yığılıb qalmış muğamı, şuru, zəfər cəngidir. Əslində, sən elə musiqinin özüsən. Daşa dönmüş, heykəlləşmiş, lallaşmış, firuzəyi kaşıya tutulmuş səmt qatarında uyuyan həzin, kövrək musiqi. Bəlkə, sən musiqidən də ehtişamlısan, Möminə xatın. Duruşunla, baxışınla, təvazökarlığınla. Axı musiqi bir an da olsa, susur, uyuyur, itir, batır, paslanır. Sənsə əsrlərin əbədi sükutuna dalsan da, Günəş ziyasından qidalanıb gözəlləşdikcə, Ayı seyr etdikcə gecə və gündüzümüzə bərq vurursan. Aylı gecələrdə, günəşli günlərdə ətrafa səpələdiyin bu təvazökarlıq ənginliklərdə közərən qövsi-qüzeh kimi cilvələnərək tarixin dolanbac yollarına nur çiləyir. Seyrinə gələnlərə sirli-sehrli dünyanın möcüzəsi, gözyaşını ovcuna tökənlərə bitib-tükənməyən eşq hekayəsi, sənə sirrini verənlərə sirdaş oldun. Bəlkə də, bu heyranedici duruşla bütün hüznlərə inam və vəfa ilə tab gətirib, vüqarını az da olsun əyməmisən.

İnsan bu qızıl tarixə dönüb baxdıqca yenidən və yenidən qürur duyur öz keçmişi ilə. Əcəmi Naxçıvaninin sənət sevgisindən yaranmış bu məqbərə artıq dünya memarlıq mədəniyyətinin zərif nümunəsi kimi tanınaraq Azərbaycanın, eləcə də Naxçıvanın ölməz memarlıq məktəbinin unudulmaz sənət əsərinə çevrilib. Naxışlarının ecazkar quruluşu Odlar yurdu mədəniyyətinin yüksək səviyyədə olduğundan xəbər verir. Taxçalarını örtən naxışlar divarlarını həmin yerdə necə də muma döndərib yüngülləşdirərək kütlə və həcmlərin ifadəli uyğunluğunu yaradıb. İlahi, memar sənətə üstünlük verərək ucaltdığı abidədə daşı, torpağı adilikdən, donuqluqdan çıxarıb ona yeni ruh, yeni nəfəs verərək necə də canlı varlığın bir parçasına çevirib.

Ötən hər əsr Möminə xatınla yaşıd olan karvansarayları, məscid və minarələri, darvaza və müxtəlif tikililəri səmum külələri ilə uçurub, qoparıb, silib aparsa da, incə, zərif və gözoxşayan naxışlarla bəzədilmiş Möminə xatın məqbərəsi tarixin bütün üzünə qarşı çıxaraq günümüzədək ayaqda durmağı bacarıb. Dünən də, bu gün də, sabah da yolu Naxçıvandan düşən və düşəcək hər bir qonaq, onu dəfələrlə görən yerli sakin də məqbərə önündə ayaq saxlayıb dayanır, ölməz sənətkarın duyğu və hisslərinin timsalına çevrilmiş abidənin naxış və ehtişamına qürur və heyranlıqla baxır. Keçmişə sevgi və ehtiramla yanaşdığımızda görürük ki, memorial abidələrin daxili və xarici bəzəyində hüzn rəmzi olan mavi-firuzəyi rəng üstünlük təşkil edib. Bu rəng Möminə xatın abidəsində də özünü qabarıq şəkildə göstərib. O bizə əzəmətli sultanlardan qalan zərif əmanətdir. Gəlin qoymayaq heç bir naşı əl onun hüsnünü korlasın. Heç bir yad göz ona kəm baxsın. Qoy o daim bizim səmtimiz, yönümüz olsun.

### Atabəy yadigarı

Çox güclü xarakterə və qərarlı kimliyə sahib olan Möminə xatın həyat yoldaşı Eldənizin həm siyasi, həm mənəvi dəstəkçisi, eyni zamanda ən yaxın məsləhətçisi idi. Atabəyin Azərbaycan hakimiyyəti illərində etdiyi bəzi siyasi yanlışlıqları Möminə xatının özünün diplomatik səyləri ilə yoluna qoyduğunu hər zaman qürurla xatırlayırıq. Bu səhvlər arasında ən mühümü Eldənizin Aran Atabəyi Xasbəyin öldürülməsi zamanı sultan Məhəmmədə qarşı üsyankar fəaliyyəti idi. Məhz Möminə xatının səyləri sayəsində Atabəyin sultan Məhəmmədlə barışığı tarixin saralmış səhifələrində arxivləşərək günümüzə qədər gəlib çatıb. Eldənizin sultana yazdığı məktubun üslubunda da həyat yoldaşının diplomatik dəst-xəti aydın hiss edilirdi. Atabəy bütün ömrü boyu məsləhətçisinə çevrilən Möminə xatının məsləhətlərini qulaqardı etmir, saray münaqişələrinə qarışmır, bir-birləri ilə ədavət aparan əmirlərin tərəfini saxlamırdı. Şərəf simvolu bu qadın həyatını sarayda keçirməyərək bir çox hərbi səfərlərdə iştirak edib. At minməkdə, qılınc tutmaqda kifayət qədər mahir olan bu qadının ömür yoluna tarix özü şahidlik edib. Tarix onu yüksək dəyər sahibi olaraq təqdim edib. Oxuyub mütaliə etdiyimiz kitablar bizə bu qadının güclü diplomatik bacarığa sahib olduğunu, siyasi hadisələrə istiqamət verdiyini, siyasi ixtilafları, xüsusilə də əri ilə sultan olan oğlu arasında intriqalara vasitəçi kimi anında müdaxilə etdiyini deməyə imkan verir. Bununla belə o heç zaman hadisələrin mərkəzində olmağa can atmayıb. Möminə xatının ən böyük missiyası isə xeyriyyəçilik fəaliyyəti idi. O, çox sayda mədrəsə, ibadətgah, bina inşa etdirərək xalqın və alimlərin xidmətinə verib. Möminə xatının qadın sultan kimi başqa bir xüsusiyyəti isə hərbi səfərlər ərəfəsində bütün hazırlıqlara şəxsən nəzarət etməsi idi. Ordunun keçdiyi yolda qərargahların qurulmasına, döyüş sursatlarının çatdırılması, çadırların qurulması, ərzağın təşkil edilməsi ilə bilavasitə özü maraqlanırdı. O, vaxtının çoxunu Naxçıvanda, bəzən isə Həmədan və Təbrizdə keçirib. Naxçıvanda xatirəsinə ucaldılan Möminə xatın məqbərəsinin tikintisi Atabəy Eldənizin vəfatından sonra oğlu Cahan Pəhləvan tərəfindən davam etdirilib. Bu məqbərə Səlcuqlu dövrünün ən gözəl memarlıq abidəsi sayılır.

### Möminə xatın

Ey sərvboylu Möminə xatın, bu torpaqda ürək döyüntülərin hələ də eşidilir. Bu döyüntülər sevincindən, iffətindən, eşqindənmi söz açır? Amma əminəm ki, sənin əsrlərə sinə gərən köksün əsrlər ötdükcə sənətkarın Əcəminin, vəfalı yoldaşın Atabəyin, sevgili oğlun Cahan Pəhləvanın adına əbədi şöhrət çələngi hörür. Bu çələngin hər bir kərpici təkcə qədim Naxçıvanın deyil, qoca Şərqin gözəllik duyumundan söz açır, sevgisini, eşqini dünyaya tərənnüm edir. Möhtəşəm abidənə həkk olunan bu məhəbbət təəssüratı boşuna deyil. Azərbaycan qadınının, el anasının xatirəsini əbədiləşdirmək naminə, pak məhəbbət naminə ucaldılıb bu zərif abidə. Bu ucalıqdan baxdıqda Leylinin eşqinin, Şirinin ləfinin fövqündə duran Möminə ana görünür. Necə görünməyə bilərdi? O, eşq ilə yoğrulub eşq ilə yaşamışdı. Bəlkə də, türbənin üzərindəki küfi xətt qatarları, ümumi məhzunluq halının, nakam eşqin nisgilinin qəm karvanı məhz Əcəmi sənətinin qanadında pərvazlanaraq bütün Şərq aləminə sirayət edib. Zaman ötdükcə kədər deyil, sevinc, nəşə və iftixar mərkəzinə çevrilmiş bu əzəmətli türbə artıq neçə-neçə nəsillərin zövqünü əks etdirən canlı heykələ dönüb. Bu heykəl Əcəmi dühasından, Atabəy yadigarından gətirdiyi xoş müjdələri gələcək nəsillər üçün əbədi ərməğana çevirəcək, hələ bir çox nəsilləri özünə heyran qoyacaq.

**"Şərq qapısı"**

# Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:

**“Naxçıvanın çox gözəllikləri var. Birincisi, onun təbiətidir. Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. Bax ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar – burada yaşıllıq azdır – bu diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik, yenə də deyirəm, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi insanlar da məğrurdurlar.”**

# Bir bahar gününün düşüncələri



Qoca Şərqin qapısında vüqarla, əzəmətlə, məğrurluqla dayanan, günü-gündən cavanlaşan, qədim Naxçıvanım! Nuhun izləri yaşayan diyar! Böyük Mirzə Cəlilin, Hüseyn Cavidin ana Vətəni! Beşminillik şəhər mədəniyyətinə malik olan ulu yurd yerim. Görkəmli dövlət xadimi Heydər Əliyevi dünyaya bəxş edən müqəddəs məmləkət! Səndə tarixlərin çox nişanı var. Sənin dünəninə boylanır, bu gününə baxır, sabahını görürük. Yaşadığın şanlı tarix bu gün böyük sevgi və ehtiramla yad edilir, yaşadılır. Bu tarixin bir-birindən zəngin səhifələri qəhrəmanlıqlarla doludur. Bu gün isə özünün yeni dövrünü yaşayırsan, doğma məmləkətim. Sevinirik ki, gözəllik sənin yolyoldaşına çevrilib. Bütün fəsillərdə bu gözəlliyi, füsunkarlığı görmək olar. Diyarımıza qədəm qoyan baharın gözəllikləri də bu yurdun insanlarına özgə bir ovqat bəxş edir.

*Tikilir, qurulur qədim Naxçıvan,*
*Hər an gözəlləşir, bu xoş günündə.*
*Çiçək dənizidir qoynunda hər yan,*
*Bütün gözəlliyi sənsən önündə.*

Bir bahar günündə bu füsunkar təbiətin, ülvi gözəlliyin qoynunda aldığım təəssürat ruhumuzu təzələyir. Bu, doğma Naxçıvanımızın baharıdır, sənin, mənim, hamımızın baharıdır...

# Nuh yurdunun əzəmətli Haçadağı

***Başında həmişə dumanlar gəzər,***
***Çağlayar, qaynayar, daşar Haçadağ.***
***Çiçəklər köksündə yazıya bənzər,***
***Olar ilk bahara şüar Haçadağ.***

***Qoşa buynuzu var maral timsalı,***
***Olub Naxçıvanın hüsnü, camalı.***
***Dağlar maralına bənzər bu halı,***
***Sevən ürəkləri oxşar Haçadağ.***

***Hərdən şimşəklərin gələr tuşuna,***
***Göylər ildırımı çaxar başına,***
***Xırda təpələri yığar başına,***
***Özü sərkərdəyə oxşar Haçadağ.***

**Muxtar QASIMZADƏ**



# Yerə incilər səpən Gurbulaq



***Min bir rəngi özündə canlandıran Şahbuz rayonunun bütün dağlıq ərazilərinə Tanrı sanki öz möhürünü vurub. İqlimi kimi təbiəti də dəyişkən olan bu dağların sıldırım qayalarında, yamaclarında əsrarəngizliyin ovsununa düşməmək mümkün deyil. Dağlara uzanan yolların daşlı-qayalı olması belə gözyaşı kimi təmiz axan suların şırım-şırım etdiyi yamacların gözəlliyini bu yurd yerinin əlindən ala bilməyib.***

Necə ki qış öz köçünü yığıb dağlara çəkilir, o zaman Naxçıvan təbiəti də al-əlvan rəngə bürünür, libasını dəyişir. Yay aylarında Kiçik Qafqaz dağlarında 3 fəsil hökm sürür ki, avqust ayının ortalarınadək bu dağların əksəriyyətində qarı görmək mümkündür. Təmiz hava, buz bulaqlar, 3 fəsli bir arada yaşayanların ömrü, bəlkə də, elə burada uzun olur. Burada təbiətin gözəlliyinə gözəllik qatan, səsi torpağın himninə çevrilən, yerə incilər səpən, dağlara bəzək verən də elə onun sərt qayalarından tökülən şəlalələridir. Tanrının bəxş etdiyi bu şəlalələrin suyu insanı xəyala apararkən ruhunda gözoxşayan təbii lövhələr yaradır. Elə Gurbulaq şəlaləsi kimi...

Bu şəlalə Dərələyəz silsiləsindəki qar sularından qidalanır və öz bolsululuğu ilə fərqlənir. Elə buna görə adı Gurbulaq olan şəlalə, təxminən, 40 metr hündürlükdən tökülür. Suyun təmizliyi, ecazkar görünüşü, dağların al-əlvanlığı, təbiətin zənginliyi Cənubi Qafqazın ən ideal məkanlarından olan Dərələyəz silsiləsinin cənub yamacında yerləşən Dərəboğazına gedənləri heyran qoyur.



# Naxçıvanın mərcan gözlü gözəli

Naxçıvanın təbiəti, təbii nemətləri, təbiət abidələri sağlam yaşam tərzinə üstünlük verən hər kəsin seçimidir. Nuhun ayaq basdığı bu qədimdən də qədim ulu diyarı dövrələyən, yayın cırhacırında belə təpəsində qar olan əzəmətli dağlar, bol meyvəli, bəhərli bağlar, uzunsaçlı gözəli xatırladan şəlalələr, çaylar, göllər Tanrının bu yerlərə bəxşişidir. Gül-çiçəkli çəmənlikləri, saf və təmiz dağ havası, meşələri, Zorbulaq, Durnalıbulaq, Uzunbulaq kimi şirin suları və “Narzan” tipli mineral suları ilə məşhur olan Batabat yaylağını isə şair İslam Səfərli mərcan gözlü gözələ bənzədib:

*Bulaqların bir səmtədir axarı,*
*“Salvartı”nın xoş görünür baxarı,*
*Biçənəkdən at səyridib yuxarı,*
*Yalmanına yata-yata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

Dillər əzbəri olan Batabat yaylağı Şahbuz rayonunun ərazisində, Kiçik Qafqaz dağlarında yerləşir. Burada, əsasən, dağ, göl və dağ-çəmən landşaftı inkişaf edib. Batabat yaylağını dəniz səviyyəsindən, təqribən, 3100-3200 metr hündürlüyü olan “Ağdaban”, “Qonaqgörməz”, “Səbətkeçməz”, “Təkəli”, “Əyriqar”, “Çaldağ” adı ilə tanınan dağlar əhatə edir. Mütəxəssislər Batabat yaylağının təbiətini, saf havasını ağciyər, ürək, əsəb və bir sıra xəstəliklər üçün çox faydalı hesab edir. Bu yerlərin iqlimi və füsunkar mənzərələri xarici turistləri də bura cəlb edir.



# Əlçatmaz zirvələrin pıçıltısı...



Şərqin keçid qapısı adlandırılan Naxçıvan təkcə tarixi abidələri və zəngin mədəniyyəti ilə yox, həm də insanı ağuşuna alan təbiəti ilə ruhumuzu oxşamağı bacarır. Bu məkanda dağlar öz möhtəşəmliyi və ilhamverici təsiri ilə sanki insanı nağıllar aləmindəki uçan xalçanın üzərinə götürərək başqa bir aləmə aparır. Naxçıvan dağları sərvətlər içərisində ən bənzərsizi və təbiətin möcüzələri içində ən misilsizidir. Bu dağlar gah Əmir Teymur kimi bir sərkərdəni yarı yolda qoyub, gah da Məmməd Araz kimi bir şairin ilham qaynağına çevrilib.

Bəzən səhər çağı dağları görmək mümkün olmur. Duman sanki yaşmaq misalı dağların simasını örtür. Baxışlar dağlar boyu hey getdikcə dayanmaq bilmir... Sanki dağlar Dədə Qorqudtək qopuzunu əlinə alır, qəlbimizdə olan atəşi və sevgini yenidən dastana çevirir... Naxçıvan dağları təkcə gözəllik yox, həm də güc və sabitliyin rəmzidir. İnsan övladı bu həyatda özünü hər kəsdən yüksəkdə görmək istəyir. Dağlar həm də bizə sevgini, dostluğu və təbiətə hörməti öyrədir. Nə bilmək olar, bəlkə də, bu dağlar aşiq olmayan bir kəsi belə dünyanın ən romantik adamı olmağa məcbur edir...

Naxçıvan dağları Zəngəzur, Dərələyəz və Alagöz dağ silsilələrinin davamı olaraq götürülür. Bu dağlar nadir bitki örtüyü üzərində dağ keçisi, qartal və bəbir kimi heyvanların da məskəninə çevrilib.

# Biz çobanıq, dağdı, daşdı yerimiz

Yazın gəlişi ilə torpaqdan boylanan yarpızın, nanənin ətrinin ətrafa yayıldığı günlərdən birində yaşıllığa bürünən Nəhəcir kəndində qış yuxusundan ayılan çöllərdə otlayan qoyun sürüsünə tamaşa edəndə insan özünü nağıllar aləmində hiss edir. Belinə dumandan kəmər bağlamış, zirvəsi göylərə uzanan dağların ətəyinə qar dənələri kimi səpələnən qoyun-quzular təbiət incisi olan bu yerlərin gözəl görüntüsünü daha da xoş edir.

Nəhəcir kəndində olarkən rastlaşdığımız mənzərə belə idi – qoyunlar dərədə otlayırdı, çoban isə təpənin başında yapıncısını yerə sərib oturmuşdu. Yaxınlaşıb tanış oluruq. Öyrənirik ki, Babək rayonunun Nəhəcir kəndindən olan Nail Qurbanov 10 ildən artıqdır, gününün çoxunu dağda, yamacda qoyun-quzuya baxmaqla keçirir. Söhbətləşirik:

“Qış boyu tövlələrdə saxlanılan qoyun-quzu təbiətin qoynuna ayaq açandan bəri yastığı təpələr, yorğanı buludlar olur çobanların. Qoyun-quzunun çöl vaxtı gəlib çatdımı, onlar bunu “hiss edirlər”, onların tövlədə mələşmə səsləri kəsilmir. Bu vaxt ot yeni cücərsə də, dünyagörmüşlərimiz deyərdilər ki, qoyun-quzunun ruzisi qışda qarın altında qalır, yaz açılanda onlar həmin otları axtarıb, tapıb qidalanırlar. Qoyun-quzu, keçi evin bərəkəti, həyət-bacanın yaraşığıdır. Belə ruzi-bərəkət mənbəyi olan heyvanların saxlanmasında, cins tərkibinin yaxşılaşdırılmasında daim sürünün yanında olan çoban əməyinin əvəzi yoxdur. Çobanlıq qədim peşədir. Hər bir peşə kimi, çobanlığın da özünəməxsus sirli-soraqlı dünyası vardır. Elin varını, bərəkətini artıran bu peşənin mahir ustaları min illərdir, dədə-babadan qalma bu sənəti yaşadır”.





Ordubad rayonunun Parağaçay qəsəbəsi





Naxçıvanın duz şəlalələri

# Oxucu məktubu



*Hörmətli Leyla xanım Əliyeva və Arzu xanım Əliyeva!*

Naxçıvan Uşaq Bərpa Mərkəzinə səfəriniz və sağlamlıq imkanları məhdud uşaqlarımıza göstərdiyiniz yüksək diqqət və insani qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sizin uşaqlarla səmimi ünsiyyətiniz, onların ehtiyaclarına həssas yanaşmanız və reabilitasiya prosesinə göstərdiyiniz dəstək bütün kollektivimiz və valideynlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Xüsusilə mərkəzimizə hədiyyə etdiyiniz ayaq və əl reabilitasiyası üçün nəzərdə tutulmuş müasir avadanlıqlar – "Robotic" reabilitasiya əlcəkləri, miostimulyasiya və infraqırmızı terapiya cihazları – uşaqların müalicə prosesinə böyük töhfə verəcək, onların sağlamlıq imkanlarının genişlənməsinə mühüm dəstək olacaqdır.

Sizin bu səfəriniz təkcə tibbi reabilitasiya sahəsinə deyil, eyni zamanda uşaqlarımızın mənəvi dünyasına da müsbət təsir göstərmiş, onları sevindirmiş və ruhlandırmışdır. Bu cür nəcib təşəbbüslər cəmiyyətimizdə sosial həmrəyliyin və humanist dəyərlərin təşviqinə xidmət edir. Bu nəcib və yüksək dəyərə layiq təşəbbüsünüz sağlamlıq imkanları məhdud uşaqların həyat keyfiyyətinin yaxşılaşdırılmasına, cəmiyyətə inteqrasiyasına yönəlmiş mühüm addımdır və sosial məsuliyyət nümunəsi kimi dəyərləndirilir.

Bir daha minnətdarlığımızı bildirir, Sizə cansağlığı, uğurlar və yeni humanitar təşəbbüslərinizdə davamlı nailiyyətlər arzulayırıq.

**Hörmətlə,**
**Aygül HƏSƏNOVA**
***Naxçıvan Uşaq Bərpa Mərkəzinin direktoru***

# "Şərq qapısı" qəzetinin fotoları "Land of Fire Through the Lens" adlı fotoalbomda yer alıb



Azərbaycan Fotoqrafları Birliyinin yeni layihəsi olan "Land of Fire Through the Lens" adlı fotoalbom çapdan çıxıb. Nəşrdə Azərbaycanın gözəlliklərini əks etdirən 47 fotoqrafın əsərləri yer alıb.

Albomda Naxçıvanda çap olunan "Şərq qapısı" qəzetinin fotoqrafları – Əsəd Səfərov və Əli Xudiyevin çəkdiyi fotolar da təqdim olunub. Bu fotolarda Naxçıvanın təbiəti ustalıqla əks etdirilib. Xüsusi qeyd olunmalıdır ki, kitabın üz qabığında yer alan foto Ordubad ərazisindəki Göygöldə lentə alınıb.

# "Şərq qapısı" qəzetinin əməkdaşı "Bakı Marafonu 2025"də iştirak edib



Heydər Əliyev Fondu tərəfindən təşkil olunan "Bakı Marafonu 2025"də "Şərq qapısı" qəzetinin əməkdaşı Səhnə Tağıyeva fəxri iştirakçı qismində iştirak edib. "Küləyə qalib gəl" şüarı ilə reallaşan kütləvi idman tədbirində Azərbaycandan və dünyanın müxtəlif ölkələrindən, ümumilikdə, 28 minədək iştirakçı qeydiyyatdan keçib.

Marafonun əsas məqsədi idmanın inkişafına dəstək göstərmək və sağlam həyat tərzini təbliğ etməkdir. Qeyd edək ki, sağlam həyat tərzini təbliğ edən bu marafon artıq səkkizinci dəfədir ki, "Küləyə qalib gəl" şüarı ilə keçirilib. Əlamətdar bir hadisə kimi yaddaqalan marafon iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.



# Yallı bu torpaqda ayaq tutub bərkiyib

Xalqımızın birliyi, həmrəyliyi deyəndə ilk olaraq gözlərimiz önündə Gəmiqayadakı, Qobustandakı qayaüstü təsvirlər canlanır. Bu da təbiidir, Qavaldaşın ritmləri ilə insanların ayaq ritm sədaları min illərdir, qəlb döyüntüsü kimi ruhumuza sığal çəkir. Hələ ibtidai insanların formalaşdığı bir vaxtdan yallı meydana gəlmiş və bu günümüzə kimi qorunub saxlanılmışdır. Əcdadlarımız zurna və nağaranın müşayiəti ilə çiyin-çiyinə halay çəkib məclisləri cuşa gətirən ayaq ritmləri ilə tarix salnaməmizə öz möhürünü vurmuşdur.

Bəli, Nuhun yurdu ulu Naxçıvan təkcə daşlaşan tarix yaddaşı Gəmiqaya, yeraltı və yerüstü sərvətləri, tarixi şəxsiyyətləri, memarlıq abidələri ilə deyil, həm də ən qədim folklor nümunələrimiz, xüsusən də yallıları ilə məşhurdur. Bu əzəmətli rəqs növü ilkin formasından odun, ocağın ətrafında dövrə halında oynanılır və hətta tədqiqatçı alimlərin fikrincə, Günəşi də simvolizə edirdi. Yallının beşiyi sayılan Şərur elində sıra dağlar kimi sədd halında düzülən insanlar indi də ən xoş günlərində bərabərliklərini bu cür ehtiva edirlər. Bir növ bu düzülüş qaydası elimizə göz dikən yağı düşmənə qarşı gözdağı rolunu oynayıb. "Kitabi-Dədə Qorqud" boylarında Oğuz ellərinin həyat tərzi sözlə, fikirlə çatdırılıbsa, yallılarda qara zurna sədaları ilə kollektiv rəqslə, ritmik hərəkətlərlə ifadə olunub. Qədim elin insanları illərdir ki, "Nurani"sindən, "Gənclər yallısı"na, bundan da "Şərur qönçələri"nə kimi müxtəlif yaş hədlərində yaradılmış yallı qrupları ilə ayrı-ayrılıqda bu qədim ənənəvi mirası yaşadırlar. Elə buradaca onu vurğulamağa dəyər ki, yallı sovet dönəmində dünyanın bir sıra ölkələrində Azərbaycan incəsənətinin bu əbədiyaşar növünü nümayiş etdirərək yüksək mükafatlar alıb.

Mütəxəssislərin fikrincə, Şərurda 100-dən artıq yallı növü mövcuddur. Keçmişdən bu günə kimi o qiymətli sənət incilərinin bir çoxunu bölgə sakinləri el məclislərində, mərasimlərdə, toydüyünlərdə yaşadaraq bu günümüzə kimi gətirib çıxara bilmişlər. Zaman-zaman böyük şəxsiyyətlər, görkəmli sənət adamları Şərur elini "yallıların beşiyi" adlandırıblar...

...Dahi bəstəkar Üzeyir Hacıbəylinin SSRİ Ali Sovetinə bu rayondan deputatlığa namizədliyi irəli sürülmüşdü. Onun seçiciləri ilə görüşə gəlməsi zamanı konsert proqramı təşkil edilir. Yallı bəstəkarın çox xoşuna gəlir. Elə konsert zamanı dahi bəstəkar Şərur yallılarına yüksək qiymət verərək deyir: "Azərbaycanda da yallılar var, amma yallı Şərurda doğulub. Yallının məkanı Şərurdur".

*Haşiyə.* Bir neçə il əvvəl Bakı şəhərində yaşayan şərurlu həmkarlarımızdan birinin övladının toy ziyafətində iştirak edirdik. Öncə onu deyim ki, salona girəndə özümüzü Naxçıvanda hiss etdik. Belə ki, hər şey Naxçıvan toylarında gördüyümüz kimi idi. Təbii ki, ziyafətə dəvət olunanların da böyük əksəriyyəti naxçıvanlılar idi.

Bir qədər sonra elan olunan Şərur yallısı ilə bütün diqqət rəqs üçün ayrılmış meydançaya yönəldi. Təəssüf ki, yer azlıq edirdi. Ən böyük birlik, həmrəylik, cəngavərlik rəmzi olan yallını sanki yenidən kəşf etdik...

***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallını qoruyub saxlayın. Bu Naxçıvanın tacıdır".*** Bu sözləri ölkəmizə rəhbərliyi dövründə – ötən əsrin 70-ci illərində Bakı şəhərində keçirilən "Naxçıvan mədəniyyəti günləri"ndə iştirak edən Şərur yallısının çıxışından sonra Ulu Öndər ansambl üzvləri ilə görüşündə deyib.

Ümummilli Liderimizin tövsiyəsinə sədaqətin və ehtiramın ifadəsidir ki, yallı sənətinin inkişafı sahəsində uğurlu addımlar atılıb, yallılar ilk dəfə nota köçürülüb, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunub.

"Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" 2018-ci il 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilmiş qərarla YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2019-cu ilin 21 dekabrında "Şərur yallılarının reyesteri"nə daxil edilməsi nəzərdə tutulan yallılara dair məlumatlar haqqında qəbul olunan Qərara əsasən "Köçəri", "Göyçəməni", "Tənzərə", "Baharı", "Xələfi", "Qaleyi", "Nareyi", "Xəlili", "Bəndil", "Gilani" və sair yallıların da adları "Şərur yallılarının reyestri"ndə özünə yer alıb.

Bu yazını qələmə alarkən jurnalist Sara Əzimovanın "Sarı gəlin" yallısı haqqında "Azərbaycan" qəzetinin 2012-ci il avqust ayının 26-da dərc olunmuş məqaləsini xatırladım. Müəllifin bu yallı ilə bağlı dedikləri çox maraqlıdır. S. Əzimova "Nurani" ansamblının üzvlərindən biri olan Azərbaycan Respublikasının Əməkdar artisti Kamal Babayevin adıçəkilən yallı ilə bağlı dediklərini qələmə alıb yazır: "Şərur rayonunun Tənənəm kəndində yaşamış zurnaçalan İsa Allahverdiyevdən "Sarı gəlin" yallısının adını çox eşitmişdim. O deyirdi ki, ötən əsrin 30-cu illərində Moskvada festival keçirilirdi. Həmin festivalda Həsən bəy adlı bir nəfərin rəhbərliyi ilə "Şərur" xalq yallı ansamblı "Sarı gəlin" yallısını ifa etmişdi. O zaman bu yallı böyük əks-sədaya səbəb oldu, onu ayaq üstə alqışladılar". Onu da qeyd etmək lazımdır ki, bu yallı eyniadlı xalq mahnımız əsasında yaradılıb. Xalq təfəkkürünün məhsulu olan "Sarı gəlin" yallısı barədə xalqın yaddaşında yaşayan bilgilər var. Amma, təbii ki, bunun elmi cəhətdən araşdırılmasına da böyük ehtiyac duyulur. Ən önəmli və etibarlı mənbə isə elə xalqın özüdür. Xalq heç bir musiqi təhsili almadan bu yallını yaradıb, nəsildən-nəslə ötürüb. Gəlin bunu unutmayaq: Naxçıvanın incisi sayılan yallı bizim qanımızdan, milli kökümüzdən gəlir. İmkan verməməliyik ki, nə zamanın keşməkeşləri, nə də ki müasirləşmə, yeniləşmə yallılarımızı unutdursun! Onları göz bəbəyi kimi qorumalıyıq!

**Aidə İBRAHİMOVA**

# Heydər Əliyev adına Hərbi Lisey: şərəf, qürur, zəfər

27 il bundan öncə Naxçıvanda ilk hərbi təhsil ocağının yaradılması haqqında Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncam uzaqgörən bir addım idi. 1998-ci ildən fəaliyyətə başlayan məktəb tez bir zamanda gəncləri ətrafına topladı. Görkəmli dövlət xadimi Heydər Əliyev həmin ili Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşür, xeyir-duasını verərək deyir: ***“Özünü bu peşəyə həsr edən bir Azərbaycan gənci bütün gənclərdən yüksəkdə durur, bütün gənclərdən qiymətlidir. Çünki müstəqil dövlətimiz, müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, dünyada məşhur olan və dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun. Tam inanıram ki, Azərbaycan gəncləri içərisində yaxın gələcəkdə belə sərkərdələr çıxacaqdır”.***



## Gələcəyin sərkərdələri burada yetişir







Ulu Öndər hələ 70-ci illərdə Bakıda C.Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbi yaradanda da Azərbaycanın müstəqil gələcəyini hədəfləmişdi. Bu gün görürük ki, dahi öndərin müəyyənləşdirdiyi uzaqgörən siyasət artıq öz bəhrələrini verməkdədir. Bunun ifadəsidir ki, müstəqilliyimizin qorunmasında, habelə milli ordu quruculuğunda həmin məktəbin məzunları müstəsna xidmətlər göstəriblər.

Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını ödəmək məqsədilə Ulu Öndərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə yaradılan Naxçıvan filialı çox keçmir ki, özünü doğruldur. Ölkə başçısı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə fəaliyyətinin yeni mərhələsinə qədəm qoyan Naxçıvan Hərbi Liseyi yaradıcısı və qurucusu Ulu Öndər Heydər Əliyevin adını daşıyır. Bu gün liseyin 4 minə yaxın məzunu silahlı qüvvələrin bütün birləşmə və bölmələrində öz xidməti vəzifələrini layiqincə yerinə yetirirlər.

### *Liseyin bu günü*

Liseydə müasir təhsil standartlarına uyğun hər bir şərait yaradılıb: fənn kabinələri, laboratoriyalar, trenajorlarla təchiz olunmuş idman zalı, tir otağı, zəngin kitab fonduna malik kitabxana, STEAM kabinəsi. İkiillik təhsil müddətində bütün bu imkanlardan yararlanan kursantlara təcrübəli müəllimlər dərs keçir. 2005-ci ilin dekabrında muxtar respublikaya səfəri zamanı ölkə başçısı İlham Əliyev hərbi liseydə olaraq burada yaradılan şəraiti yüksək qiymətləndirib.

Liseydə yalnız muxtar respublikadan deyil, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alır. Kursantlar muxtar respublikada keçirilən tədbirlərdə, idman yarışlarında, rəsm və şeir müsabiqələrində fəal iştirak edirlər. Bunu yataqxananın foyesində sərgilənən müxtəlif mükafatlar, fəxri fərman və medallardan da görmək mümkündür.



Ötən il bir nəfər kursant fizika fənni üzrə keçirilən fənn olimpiadasında qızıl medala layiq görülüb. Ümumilikdə, kursantlar liseyə 5 qızıl, 4 gümüş, 25 bürünc medal qazandırıblar.

### *Sərkərdə qoçaq olsa və ya Qarabağı azad edənlər*

Liseyin ilk buraxılışında 49 kursant məzun olub. Fəaliyyət genişləndikcə və liseyə maraq artdıqca məzun sayı da artıb. Nəticə etibarilə, Azərbaycanın bütün bölgələrində məktəbin məzunları təmsil olunub və xidməti fəaliyyətini layiqincə yerinə yetirib. Təhsil və xidmət illəri gəncləri peşəkar zabit kimi formalaşdırıb. Düşmənin cəbhəboyu törətdiyi təxribatların qarşısının alınmasında, eləcə də Aprel döyüşlərində cəsarət göstərən məzunlar sırasında şəhidlik məqamına yüksələnlər də var. Örnək göstərilən məzunlar yetişən kursantlar üçün vətənpərvərlik məktəbi olub. Bu məktəbi bitirənlər isə Qarabağı azad etdilər...



Hərbi liseyi seçən gənclər üçün ən ümdə amal Qarabağın düşmən tapdağından azad edilməsi idi. Bu məqsədlə ömürlərini hərb peşəsinə bağlayanlar səngər kimi dayanan oğullar üçün çətinlik, yarılmayan səd anlayışı olmayıb. Xocalının qisasını almaq, yarımçıq qalan arzuları gerçəkləşdirmək, öz yurdundan-yuvasından didərgin düşən insanları torpaqla qovuşdurmaq üçün onlar güclərinə güc qatıblar. Və nəhayət, o gün yetişib. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində şücaət göstərən oğullar sırasında Naxçıvan Hərbi Liseyinin məzunları – qəhrəmanları da olub. Vüsal Vəliyev, Zülfü Rzayev, Allahyar Telmanlı, Məmməd Zamanlı, Yaqub Nəcəfov, Raqib Hüseynov, Amin Gülməmmədov və onlarla zabit şəhidlik məqamına yüksəldi. Sağlamlığını itirənlər də oldu. 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə bütöv Vətənimizə qovuşduq, suverenliyimiz bərpa edildi. 30 illik torpaq, yurd həsrətimizə son qoyuldu. Bu zəfərin qazanılmasında hərbi liseyin məzunlarının xidməti danılmazdır və onların adları tarixə qızıl hərflərlə yazıldı. Ulu Öndərin etimad göstərdiyi, yüksək qiymətləndirdiyi gənclər ən ali mərtəbəyə – şəhidlik zirvəsinə ucaldılar, qəhrəman oldular, gələcək nəsillərə örnək oldular. Liseyin məzunlarından 4 nəfər – mayor Şahin Hüseynquliyev, kapitan Qəzənfər Bağırlı, kapitan Veysəl Müsibov (ölümündən sonra), baş leytenant Cavid Behbudov Vətən müharibəsi qəhrəmanı adına layiq görülüb, polkovnik-leytenant Rəsul Süleymanov, kapitan Şamil Babayev (ölümündən sonra) “Zəfər” ordeni, 11 nəfər məzun isə “Qarabağ” ordeni ilə təltif olunub. Bu liseyin ən ali uğur göstəricilərdir. Və liseyin kursantları 2020-ci ildə Bakıda keçirilən Zəfər paradında iştirak etdilər.

### *“Hər zaman döyüşə səfərbərik biz”*

Naxçıvan şəhərinin mərkəzi küçələrindən birində yerləşən Heydər Əliyev adına Hərbi Liseyin yanından ötənlər kursantların gur səslə oxuduğu və addım səsləri ilə tamamladığı mahnını çətin ki, eşitmiş olmayalar:

*Başımız üstündə üçrəngli bayraq,*
*Hər zaman döyüşə səfərbərik biz.*

Döyüş meydanında sözünü deyənlər, öz ardıcıllarına örnək olanlar, biz sizə güvəndik. Ulu Öndərin əminliklə bəslədiyi etimadı doğrultdunuz, Qarabağın azadlığına qovuşmasında pay sahibi oldunuz. Əhsən sizə! Bu gün sizin yolunuzu davam etdirənlərə – hərbi liseyin kursantlarına da eyni etimadı bəsləyirik.

Qalib ordumuzun sıralarında sizi görmək əzmi ilə, irəli!



**“Şərq qapısı”**

# Bura mərdlik, qeyrət qalasıdır Naxçıvanın



Azərbaycanın döyünən ürəyi qədim Naxçıvanda bir yurd yeri var. Sıx meşələri, gur axan bulaqları, səsli-küylü çayları yoxdur, amma bu bir ovuc torpağı canından çox sevən insanları var bu qədim yurdun. Rayona ilk addımı atanda yolboyu sıralanan fotolardan baxan gənc üzləri görənlər bilirlər buranın Qeyrət qalası olduğunu. Bəli, bura həmin yerdir. Ulu Öndərin "Qeyrət qalası" adlandırdığı yer. Torpağının hər qarışı qanla sulanan yer. 1990-cı ilin soyuq qış gecəsinə kimi sakit bir həyat sürürdü burada insanlar.



İstixanalarda yetişdirilən qərənfillərin sorağı uzaq diyarlardan gəlir, Sədərək üzümü insanların qazancını qat-qat artırır, Şirarxının bol suyu əkinbacalara həyat verirdi. Ta ki həmin soyuq qış gecəsinə kimi. Uşağın, böyüyün atəş səsinə yuxudan oyandığı həmin gecə həm dəhşət gecəsi, həm də qəhrəmanlıq dastanının yazılmağa başladığı gecə idi.

Həmin gecədən sonra dünya bir xalqın qəhrəmanlığının şahidi oldu. Soyuq səngərlərdə Vətəni üçün canından keçən əliyalın döyüşən oğulların qəhrəmanlığını gördü. Sədərək kəndi düşmənin mərmi yağışına tuş gəldiyi həmin günlərdə qış da sanki öz məharətini göstərirdi. Qarın dizə çıxdığı qış gecələrində mavi yanacaq olmadan çıraq işığında müharibədən də çətin bir sınaqla üzləşmişdi hər kəs – aclıqla... Güllə səsindən qorxuya düşüb anasının qucağına sığınan körpələri isitməyə bir odun, ocaq tapa bilməyən azərbaycanlı qadını bir tikə çörək tapanda onun yarısını səngərdəki əsgərə göndərib, yarısı ilə uşağını doyurub özü ac yatırdı. Qışın soyuq günlərində evindən, ocağından didərgin düşən sədərəklilər Dəmirçi kəndi ilə Sədərək kəndi arasındakı "Dəhnə" adlanan dərədə soyuq çadırlarda yaşamaq uğrunda mübarizə aparırdı.

Sanki dünya da kar olmuşdu həmin günlərdə, heç kim eşitmirdi səsimizi. Naxçıvanın hər yerindən gələn oğullar Sədərəyi ov gülləsi ilə müdafiə edir, heç kim bir addım da geri çəkilmirdi. Yaşamaq və torpaq uğrunda mübarizədəki əzmi dillərə dastan oldu Sədərəyin. Ulu Öndərin Naxçıvana qayıtdığı ilk günlərdə Sədərəkdə səngərdə döyüşən oğulları, Dəhnədə çadırlarda yaşayan sakinləri ziyarət etməsi səngərdəki əsgərə də, çadırda yaşayan insanlara da güc verdi. Hamı inanırdı, hamı əmin idi ki, Heydər Əliyev xalqı bütün çətinliklərdən xilas edəcək. Onun gəlişi soyuqdan buz kəsmiş insanları isitdi, ov gülləsi ilə düşmən tankının qarşısına çıxan döyüşçüyə güc verdi. Xalqımızın haqq səsini dünyaya duyuran Ümummilli Lider Sədərək rayonunun yaradılması üçün addımlar atdı. Erməni terrorunun qarşısını aldı. Ulu Öndərin qətiyyəti düşməni susdurdu. Həmin illərdə Sədərək dağlarında məğlub olan düşmən 44 günlük Vətən müharibəsində bu istiqamətdə bir güllə belə atmağa cəsarət etmədi.

Bu gün beş addımda dayanan düşmənin gözü önündə çiçəklənir yurdumuz. Heydərabad qəsəbəsində açan çiçəkləri, gözəl mənzilləri, Sədərək kəndində alın tərini torpağa qatıb ruzi qazanan insanları görəndə, Qaraağac kənd tam orta məktəbindən gələn uşaq səslərini eşidəndə bir daha əmin oluruq ki, bu xalq bir ovuc küldən əzəmətli abidə yarada biləcək gücdədir. Bu xalq kiçik bir kənddən böyük bir qəhrəmanlıq dastanı yazıb, bu Vətənin bir ovuc torpağının tonlarla qızıldan qiymətli olduğunu sübuta yetirəcək əzmdədir. Bu gün buradan yolu keçən hər kəs rayonun girişində və düşmənlə üz-üzə dayanan postlarımızda qürurla dalğalanan Azərbaycan Bayrağına baxanda Vətənin əziz oğullarını ehtiramla yad edir. Və deyir ki, qədim Oğuz yurdu, Azərbaycanın Avropaya açılan qala qapısı, türk xalqlarını birləşdirən "Ümid" körpüsü, qeyrət qalası Sədərək necə ki igid oğulların var, necə ki torpağı qoruduqları kimi əkib-becərməyi də bacaran insanların var, hələ sən yüz illər bundan sonra da yaşayacaqsan. Naxçıvanın qəhrəmanlıq rəmzi, qeyrət qalası, alınmaz səddi olacaqsan.

**"Şərq qapısı"**



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib

Bununla bağlı keçirilən iclası giriş sözü ilə Baş nazirin birinci müavini Elşad Əliyev açaraq bildirib ki, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli Fərmanı imzalanmışdır. Həmin Fərmana əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2025-ci il 5 mart tarixli "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında" Qərarı qəbul edilmişdir. Komissiya 11 nəfər tərkibdə təsdiqlənmişdir.

Elşad Əliyev diqqətə çatdırıb ki, komissiyanın iclasının gündəliyində duran əsas məsələ 2024-cü il ərzində uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair muxtar respublika üzrə illik hesabat barədə məlumatın dinlənilməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın 2025-ci il üçün "İş Planı"nın, komissiya tərəfindən keçiriləcək monitorinqlərin təşkili üçün ekspert qrupunun tərkibinin və 2025-ci ildə monitorinq keçiriləcək uşaq müəssisələrinin siyahısının təsdiq edilməsindən ibarətdir.



İclasda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova 2024-cü il ərzində uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair muxtar respublika üzrə illik hesabat barədə çıxış edərək bildirib ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası daim nəzarətdə saxlanılmışdır. Belə ki, onların cəmiyyətə inteqrasiya olunması, o cümlədən həmin uşaqların inklüziv təhsil imkanlarından geniş istifadə olunması, distant təhsil proqramlarının təkmilləşdirilməsi, sosial reabilitasiyalarının təmin olunması məqsədilə işlər görülmüş, müvafiq uşaqlar məktəbəqədər, ümumi təhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilmişdir. Ötən il ümumtəhsil məktəblərini bitirən sağlamlıq imkanları məhdud uşaqlardan 2 nəfəri peşə məktəblərinə, 4 nəfəri orta ixtisas təhsili müəssisəsinə, 12 nəfəri isə ali təhsil müəssisələrinə qəbul olmuşdur.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən Hüseyn Ələsgərov Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın 2025-ci il üçün "İş Planı"nı, komissiya tərəfindən keçiriləcək monitorinqlərin təşkili üçün ekspert qrupunun tərkibi ilə bağlı iclas iştirakçılarına məlumat verib. Qarşılıqlı fikir mübadiləsi çərçivəsində Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə uşaq hüquqları sahəsində aparılan dövlət siyasətinə toxunaraq bu sahədə yeni peşələrin yaranması ilə bağlı, həmçinin yaşıl iqtisadiyyata keçidlə bağlı fikirlər səsləndirib.

İclasın yekununda qeyd olunan məsələlərlə bağlı komissiya üzvlərinin əlavə və təklifləri nəzərə alınmaqla qərar qəbul edilib.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Qüdrətdən səngərli Əlincə!



***Əcdadlarımızın mübarizə əzminin daşlaşmış salnaməsi, dönməzlik simvolu Əlincə! Tarixin hər səhifəsində izin, nəfəsin var sənin. Əzəmətlisən, əzəmətli olduğun qədər də sərt, məğrur, qüdrətli. İlk baxışda rəngsiz görünsən də, könül gözü ilə seyrinə çıxanlar üçün rəngarəngsən, füsunkarsan, bənzərsizsən, nadirsən.***

Məğrursan, azad bir məmləkətin qalib ordusutək. Vahiməlisən, əngin səmalarında dövrə vuran qartallar kimi. Güvən yerisən, görüşünə gələnlərin ruhuna hüzur bəxş edirsən. Sənin seyrinə çıxarkən dil heyrətdən susur, söz aciz qalır, sinəndə həzin bir nəğmə sənə laylay çalır. Bu nəğmə öz ahənginə səsləyir səni, ruhun dincəlir. Sənə baxmaqla, qulaq verməklə dinləyib anlamaq olmur səni. Çünki sən izaholunmazsan! Ancaq mürəkkəb olduğun qədər də, əslində, sadə, ancaq ruhunu sənə təslim edənlərə öz sirrini pıçıldayırsan...

Yalçın qayaların zirvəsində Vətəninə keşik çəkən çinar qamətli, dağ qüdrətli əsgərsən sanki. Şərəfli tarixin minillik əzəmətindən boylanır sənin. Əmir Teymur kimi yenilməz fatehin aramsız hücumlarına 14 il sinə gərən, heç vaxt qəddini yadlara əyməyən Əlincəqala! Sən təkcə şərəfli tariximizin şahidi olmamısan, eyni zamanda səni yaradan xalqın istedad və zəkasının məhsulu, mədəni səviyyəsinin meyarı, əcdadlarımızın gücünün, qüdrətinin sübutu, tariximizin ən səs-küylü, ən həlledici dönəmlərinin yadigarısan. Sən əyilməz bir xalqın, bir ulusun əmanətisən. Sən açılmayan sirli bir aləm, tarixin gizli həqiqətisən. Sənin məğrur sıldırımlarının arxasında igidlərimiz cəsarətlə sinələrini düşmənə sipər edib. Mərd ərənlər şahin olub düşmənin başına şığıyıb, od ələyib. Bu şücaətlə sən biləklərdə güc olub, yaddaşlara yaddaş olub əsrləri yola salmısan. Neçə-neçə qoşunların qarşısında hünərlə dayanmısan.

Bir zamanlar hakim xanədanlara – Səlcuqlara, Atabəylərə, Səfəvilərə istehkam olan əzəmətli Əlincəqala! Sən dövranın gərdişinə mətanətlə sinə gərmisən, neçə sınaqlardan keçmisən, amma mətin dayanmısan, yenilməmisən! Keşməkeşli tarixini vərəqlədikcə hünərinə baş əyirik mübarizliyinin! Əcdadlarımızın əyilməzlik, mərdlik, şücaət rəmzi Əlincəqala! Oğuz elinin ərənlərinə şəraf zindanı olmusan, sən! Ululаrımız doğma torpağı qorumağın, Vətən üçün savaşmağın, döyüşməyin, yeri gəlsə, ölümə belə getməyin nümunəsini səndə yaradıb. Vətən eşqilə yaşayanların azadlıq uğrunda mübarizəsinin, işğalçılara qarşı qanlı döyüşlərin şahidi olan, tarixin keşməkeşlərinə mətinliklə sinə gərən Əlincəqala! Min illərdir, tarix ümmanında yol alanlara sən mayak olmusan!

*P.S.* Bu gün Naxçıvanda qədim tariximizin şahidi olan abidələrimizə xüsusi diqqət göstərilir. Bu həm də Ümummilli Liderimizin tarixi keçmişimizin yaşadılması sahəsində gördüyü işlərin davamıdır. Tarixi keçmişimizə göstərilən hörmət və ehtiramın nəticəsidir ki, Naxçıvan ərazisində mövcud olan bütün abidələr qorunur, mühafizə altına alınır. Elə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Əlincədağ təbiət abidəsinin təşkil edilməsi haqqında qəbul edilən qərar da bu amala xidmət edir. Bu qərar daş yaddaşımıza, ulu keçmişimizə, milli-mənəvi dəyərlərimizə göstərilən diqqətlə yanaşı, xalqa tarixi dəyərlərimizin ölməzliyini təlqin edir. Qərara əsasən Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində, Əlincəçayın sağ sahilində və Zəngəzur silsiləsinin suayırıcısındakı Aracı yüksəkliyindən cənub-qərbə ayrılan Dibəkli qolunun eyni istiqamətli Qırxlardağın şərq yamacında yerləşən, hündürlüyü 1821,4 metr olan Əlincə dağına respublika əhəmiyyətli təbiət abidəsi statusu verilib və həmin dağ Əlincədağ təbiət abidəsi adlandırılıb.

**"Şərq qapısı"**

**Belinə kəmər kimi**
**Bağlayıb sərt daşları.**
**Ehtiyat əsgər kimi**
**Saxlayıb mərd daşları.**
**Sanki qoyubdu dincə –**
**Əlincə.**

**Dörd qaplandı hovuzlar,**
**Alır buluddan bacı.**
**Zirehlənib hasarlar,**
**Qurulub taxtı-tacı**
**Miladdan çox-çox öncə –**
**Əlincə.**

**Vuruşub zaman-zaman,**
**Düşməni əldən düşüb.**
**Olubdu yurda qalxan,**
**Miranşah dildən düşüb.**
**Sıxıb Teymuru küncə –**
**Əlincə.**

**"Şahtaxtı" – şah qalası,**
**Dizində ərlər yatır.**
**Şırımlanıb yaxası,**
**Köksündə sirlər yatır.**
**Daş alnında düşüncə –**
**Əlincə.**

**Burda Atabəy Özbək**
**Qalaya bel bağlayıb.**
**"Xəzinəni" sonadək**
**Məlik Tahir saxlayıb.**
**Döyüşübdü ölüncə –**
**Əlincə.**

**Cəlair dövlətinin**
**Himni, bayrağıdır o.**
**Mömin Şərafəddinin**
**Yaddaş çırağıdır o**
**Təzkirəmdir bütüncə –**
**Əlincə.**

**Muxtar Qasımzadə**



# Əlincəçay mahalının Xanəgahı...





Zəngin tariximizin izlərini özündə yaşadan qədim yaşayış yeri. O Xanəgah ki əsrlərin sınağına sinə gərərək tarixi qala rolunu oynamış, dövrümüzdə də mərdlik, mübarizlik simvolumuza çevrilmişdir. Xanəgah kəndi adından da göründüyü kimi, dini ritualların keçirildiyi və dini elmlərlə bağlılığı olan kəslərin ibadətgahına çevrilmiş müqəddəs bir məkandır. Kəndə daxil olarkən Əlincəqalanın əzəməti, yamaclardakı məxməri göy otlar və eləcə də uzaqdan Günəş kimi parlayan Şeyx Nəiminin türbəsi, səfalı havası və insanları oraya üz tutan qonaqları nağıllardakı kimi xeyirxahlıqla salamlayır. Burada yaşayan tarix sanki insanı hər qarışda keçmişə boylanmağa vadar edir. “Səni bu hüsni-camal ilə, kamal ilə görüb, qorxdular həqq deməyə, döndülər insan dedilər”, – deyən haqq şairimiz ölməz Nəsiminin ustadı Fəzlullah Nəiminin izləridir kəndin hər köşəsi...

Orta əsrlər dövründə Azərbaycanın bir çox bölgəsində, o cümlədən bu yaşayış məntəqəsində İslam ayinlərinə hörmət və ehtiram özünü çox ciddi şəkildə göstərməkdədir. Maddi-memarlıq abidələri olan daş tikililərimizin bir çoxu bunun ən bariz göstəricisidir. Belə ki, həmin dövrlər təsəvvüf və irfan olduqca nüfuzlu bir dini-ideoloji, ictimai-tarixi, əxlaqi-mənəvi və əqli-məfkurəvi cərəyan olmaqla təzadlı, özünəməxsus çoxşaxəliliyi ilə mürəkkəb irəliləmə yoluna cığır açmışdır. Elmi-fəlsəfi baxış nöqteyi-nəzərindən kəskin mübahisə və mücadiləyə baxmayaraq, bu yoldan mənəvi qida alan İslam alimləri zəngin bir irfan məktəbinin təməlini qoymuşlar. Xanəgah kəndi, demək olar ki, Azərbaycanda çox yayılmış dini cərəyanlardan olan hürufilik fəlsəfəsinin əsas dayanıqlı məkanlarından biri kimi özünəməxsus bir məktəb rolunu oynamışdır. Bəlkə də, budur Xanəgah kəndinin insan ruhuna mənəvi rahatlıq gətirən ab-havası... Bu doğma diyarı gəzdikcə tarixi tikililərlə sanki canlı ünsiyyət qurub söhbət edirsən.

Kənddəki orta əsrlərə aid tarix-memarlıq abidəsi ilə qarşılaşırıq. Qədim yurd yerinin ən yaşlı sakinləri buranın adını “Xan hamamı” kimi bildiklərini nəzərimizə çatdırır. Lakin elmi mənbələrə, alim və tədqiqatçılarımızın araşdırmalarına nəzər saldıqda məlum olur ki, 1978-ci ildə torpağın altından aşkar edilmiş bu abidə vaxtilə burada yaşamış dərviş təriqətlərinə mənsub olub. Əlincəqalanın gündoğan hissəsindən bir az aralıda yerləşən bu qədim tikili, planda dördkünc formada olmaqla yan tərəflərdən divarla əhatələnərək üstü bişmiş qırmızı kərpicdən günbəzlə bağlanıb. Şərq memarlıq xüsusiyyətlərini özündə əks etdirən binanın günbəzinin orta hissəsi də özünəməxsus, fərqli formadadır. Belə ki, tikilinin günbəzi üzərində həm havalandırma, eləcə də Günəş işığının içərini daha da aydınlatması üçün nəzərdə tutulmuş kiçik bir dördayaqlı balaca günbəz yerləşir.

Qeyd edək ki, ölkə əhəmiyyətli bu cür tarix-memarlıq abidəsi incə toxunuşlarla bərpasını gözləyərək kənd sakinlərinin xeyir-duası nəticəsində ayaqda durub. Gəlin abidələrimizə sahib çıxaq, tariximizə sahib çıxaq. Bizim olana sahib çıxaq. Sahib çıxaq ki, tarixin bədduasından nəsibimizi almayaq. Yaxşı iz, yaxşı ad, yaxşı irs qoyaq. Əcəminin təbirincə desək:

*Biz gedirik, ancaq qalır ruzigar,*
*Biz ölürük, əsər qalır yadigar.*

**“Şərq qapısı”**

# Qadına həsr olunan abidə – Qarabağlar türbəsində zamana səyahət



Səhərin erkən saatlarında yola çıxdım. Zəngəzur sıra dağlarının qoynunda uzanan yolboyu təbiətin sakitliyi içimi doldururdu. Yolun hər dönəcəyində məni tarixin dərinliklərinə aparan bir hiss vardı. Qarabağlar kəndinə çatanda artıq ürəyim həyəcanla döyünürdü. Bəlkə də, bu hiss türbəni ilk dəfə görəcəyim üçün idi... Uzaqdan görünən möhtəşəm türbə sanki məni çağırırdı – əsrlərin susqun şahidi olan bir memarlıq möcüzəsi.

İlk addımlarımı atanda ətrafı sükut bürümüşdü. Bu sükutun içində tarixin pıçıltılarını eşidirmiş kimi oldum. Qarabağlar türbəsi təkcə daşdan hörülmüş bir abidə deyil – o, sevginin, xatirənin və əbədiyyətin simvoludur. Bu məkanda sanki zaman donub. Əsrlər əvvəl buradan keçənlərin izlərini hiss edirdim. Türbənin qarşısında dayandım və onun incə memarlığını heyranlıqla izlədim. Firuzəyi kaşılarla bəzədilmiş səthi Günəşin şüaları altında parlayırdı. Türbənin divarlarında ərəb əlifbası ilə yazılmış müqəddəs sözlər əks olunub: “Lə ilahə illəllah, Mühəmmədun Rəsulullah”. Bu yazılar yalnız bir bəzək deyil, ruhu sığallayan, insanı zamansız bir səfərə çıxaran sirli sözlərdir.

Mənə elə gəldi ki, uzaqlardan bir pıçıltı gəlir – min illər öncədən Cahan Quti xatının səsi... “Bu binanın tikilməsini Cahan Quti xatın əmr etdi” sözləri baştağın üzərində qürurla dayanır. Kim idi o? Tarixin güclü qadınlarından biri, yoxsa sevdiyi insan üçün əbədi bir yadigar qoymaq istəyən bir ömür sahibi? Bəlkə də, bu türbə təkcə memarlıq əsəri deyil, həm də bir sevgi dastanının susqun şahididir...

Qoşa minarələrin arasında addımlayanda başımı yuxarı qaldırdım. Onlar sanki səmanı yarıb əbədiyyətə çatmağa çalışırdı. Bir zamanlar bu minarələrin dolama pilləkənləri ilə yuxarı qalxanlar, dua edənlər, düşünənlər, uzaq yollardan gələnlər olmuşdular. Mən də bu qədim izlərə toxunur, onları hiss edirdim.



Türbənin içərisinə daxil olanda məni qəribə bir sakitlik hissi bürüdü. Buradakı sakitlik elə bil ki, insanın ruhuna toxunur. Sərdabənin sərinliyində dayanıb gözlərimi yumdum. Türbənin divarlarına toxunanda elə bil ki, zamanın özünə toxunurdum. Bu divarlar hər pıçıltını, hər duanı, hər nisgili içində saxlayıb sanki.

Bir anlıq təsəvvür etdim: “Cahan Quti xatın bu türbənin tikilişini izləyir, hər daşın necə yerinə qoyulduğuna diqqətlə baxır, onun izləri sonsuza qədər yaşasın deyə dua edirdi. O bu abidə ilə əbədiyyətə qovuşmuşdu. Türbə daşdan, kərpicdən ibarət ola bilər, amma mənim üçün bu, zamana meydan oxuyan bir ruh idi”.

Günəş yavaş-yavaş üfüqdən qalxaraq səmanın ənginliklərinə ucalırdı. Türbənin firuzəyi kaşıları qızılı işıqda daha da parlaq görünürdü. Ayrılmaq istəmirdim. Buradan uzaqlaşdıqca sanki keçmişi özümlə aparmaq istəyirdim. Anladım ki, Qarabağlar türbəsi təkcə memarlıq abidəsi deyil, o, zamanın dərinliklərindən gələn bir nəğmədir.

Naxçıvan və qadına həsr olunmuş türbə... Bu sözlər deyildikdə, şübhəsiz ki, hər kəsin fikrində ilk olaraq memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin sirli toxunuşları ilə inşa olunmuş Möminə xatın türbəsi canlanır... Bəs adıçəkilən Qarabağlar türbəsinin memarı kimdir? Bu türbənin memarı onun öz dili ilə desək, bənna Əhməd Əyyub oğlu Əl-Hafizi Naxçıvanidir... Bir tərəfdən memarın məşhur Bərdə türbəsi və onun ornamentlərinin oxşarı olan Qarabağlar...

Türbəni ziyarət edərkən təkcə qədim bir tikili görmədim, mən tarixin içindən keçdim, unudulmuş sirlərlə nəfəs aldım. Buradan ayrıldım, amma ruhumun bir hissəsi bu divarların arasında qaldı. Bəlkə də, bir gün yenidən qayıdacağam – türbənin susqun pıçıltıları ilə bir daha danışmağa...



**✍ Rafiq TƏHMƏZ**



# Bağışla, mən bilmədim, sən Salamməlik perronundan keçən sonuncu qatarsan




Tanrı gözəl duyğuları yaşamağı ürəkdən hiss edən bütün insanlara xoşbəxtliyi ovuc içlərində nəsib edir. Budur, min bir həvəslə, istəklə, sevinclə, əziyyətlə addım-addım Ordubadın Kotam kəndindəki Zəngəzura açılan perronu Salamməlikdəyəm. Bu tarixi binada, bu möhtəşəm perronda duyğuları izhar etmək çox çətindir. Sonuncu qatarın sanki fitini eşidir, ürkək baxışlarım, titrək ayaqlarımla, uşaq təbəssümü yaranır çöhrəmdə. İllərə, yollara, sərnişinlərinə, ona əzəli və əbədi sadiq olan Araza bu qoca və yaşlı bina qururla dirayət göstərir, bir an belə yıxılmaq, dağılmaq, yox olmaq istəmir. Axı necə yox olsun o canlı tarix. Zamanın sınaqlarından güllə yaraları ilə üzüağ çıxan bir tarix ölərmi? Xeyr, o ölməyib, qarşımızdadır. Bizi əvvəlki kimi salamlayır, sevinir və təbəssüm edir. Qəlbim dağa dönür bu perronda. Sanki hiss edirəm, Zəngəzura gedəcək ilk qatarın sərnişiniyəm.

Perrondakı qoca tut ağacı da illərin sərt rüzgarına boy verib öz sərnişinlərinin yolunu gözləyir. Axı o ağac kölgəsinə sığınan həsrətli sakinlərini öz sərinliyinə qonaq etməyin, dadlı və şirin meyvəsindən dadmağın intizarını çəkir. Axı o şən-şaqraq uşaq səslərinə, deyib-gülən sərnişinlərin baxışına həsrət qalıb. Həsrət qalıb cavanların itələşə-itələşə, dartına-dartına stansiyada qatarın açılan qapılarına basabasla daxil olmasına. Həsrət qalıb alverçilərin vurhavuruna, tuthatutuna, qaçhaqaçına. Həsrət qalıb qonaq yolu gözləyənlərin göynəyən gözlərinə. Həsrət qalıb əsgər yolu gözləyən anaların ağ örpəyinə. Həsrət qalıb nişanlı qızların ürkək baxışlarına. Həsrət qalıb həsrətin özünə. Həsrətdə belə ağır gəlmiş həsrətin tərəzisində?!

İtkilər çox ağır olur. İnsanoğlu heç zaman itkilərlə barışa bilmir. Yaxınlarımızı itirdiyimizdə barışa bilmədiyimiz kimi. Bəlkə də, Elxan Məmmədov da Culfa Lokomotiv Deposunda maşinist köməkçisi kimi sonuncu qatarı geri döndərdiyi gün ilə razılaşa bilməyib. 1992-ci ilin aprel ayında maşinist Tahir Abuzərovla son qatarı hərəkət etdirib bu stansiyada 8 saat gözlədikdən sonra geri dönüş edən bu adamlar axı necə razılaşa bilərlər bu tarixi ədalətsiz günlə. Bəlkə, onlar da mənim kimi ürəkdən inanırlar ki, yol qısa zamanda açılacaq və onlar yeni qatarla gözü yol çəkən sərnişinlərini Zəngəzur mahalından keçərək paytaxt Bakıya aparacaqlar.

Vaxtilə çoxlu sayda dəmir yolu həyatının çalışdığı bu stansiya indi öz qatarlarını və sərnişinlərini ümidlə gözləməyə davam edir. Perronda tüğyan qoparan sərt rüzgar da öz hiddətini boğa bilməyərək acığını Arazdan çıxır, onun bol-bərəkətli suyunu lal qayalıqlara çırpırdı. Dünyanın hər yerində uğurla qarşılanıb əl sallayaraq yola salınan qatarları bizim iblis qonşularımız zaman-zaman güllə-baran edib yolunu kəsərək yağmalayıblar. İnsanların bir-birinə gül uzatdığı, təbəssüm etdiyi illərdə onlar bu tolerantlığa qarşı çıxaraq içlərindəki kini qusublar. Dünyada sülhün, sevginin, dostluğun simvoluna çevrilən, ölkələr arasındakı sərhədlərdə körpü rolu oynayan dəmir yollarını və perronları yararsız hala salaraq öz simalarını ortaya qoyublar.

Ümumiyyətlə, Sədərəkdən Ordubada qədər olan dəmir yolunun uzunluğu 188 kilometrdir. 1941-ci ildə istifadəyə verilən Salamməlik stansiyasından Zəngəzur mahalının Ağbənd stansiyasına qədər olan məsafə 54 kilometrdir. İki stansiya arasında isə Zərəni, Kərçivan, Mehri, Astazur, Nüvədi stansiyaları yerləşir. Cəmi 54 kilometrlik məsafədə öz içinə qapanıb barbarlıqla hökm edən bu nasil erməni milləti sanki bizim bəxtimizə yazılmış qara yazıdır. Amma unudublar ki, yazıya mütləq pozu var. Onlar hələ Arazın nəriltisini, gurultusunu, şaqqıltısını yaxşı eşitməyiblər. Hələ qaranlıq gecənin səhər doğan günəşini görməyiblər. Bu günəşli günlər çox yaxındır. Əlimizi atıb tuta biləcək qədər yaxındır. Əlbət, bir gün...

Dəmir relslər üzərində üzü Zəngəzur istiqamətində tunel körpülərə tərəf hərəkət edirəm. İlahi! Gəncliyimdən arzulardan yarım qalan o möhtəşəm tunel körpüyə yaxınlaşıram. Hər sütunu bir qaya, hər qarışı tarix qoxur bu yerlərin. İçimdən bir dəli hıçqırıq keçir. Bilmirəm, sevincdəndir, ya kədərdən köksüm yarılır, Tanrım. Birdən boğazımdakı qəhər od püskürür. Duyğularımı gizlətmək istəməzcəsinə hönkürtüylə ağlayıram. İlahi, insanı insana qovuşduran bu tunel körpülər necə həsrət çəkib, fəryad edir. İnsan kimi əşyalar da cansızlaşıb, həsrət çəkir, sakinliyində dincəlib, səssizliyində sükuta dönüb lal-dinməz heykəl olur. Barmaqlarım toxunduqca sanki bu beton pillələrin yumşaldığını, bir anda mənimlə bərabər nəfəs alıb-verdiyini hiss edirəm. İlahi, bu doğmalıq 32 ildə heç zərrə qədər də azalmayıb. Əksinə, daha da böyüyüb, alovlanıb, şölələnibdi...

Qatar bu dünyanın cənnətidir mənə görə. Qatarı stansiyada görərkən həyəcan qarışıq xoş hisslərdən tutmuş vaqonun dəmir pillələrinə ayaqlarımı basana qədər keçirdiyim hisslər mənə o qədər məhrəmdir ki, bölüşsəm, xatirəsi itər, bəlkə də. Atam deyir, ən son 6 yaşın olarkən bu qatarla Bakıdan Naxçıvana gəlmişik. Bəlkə də, bu gün o anı hiss edirəm deyə sığınıram bu tunel körpülərə. İllərdir, içimdə yığışıb qalmış ləzzəti yaşamaq üçün o səhnəni zehnimdə təkrar-təkrar canlandırıram. Vaqonun hər pilləsinə qədəm qoyduqca sanki hansısa hündürlüyü fəth edir, dönüb son dəfə perrona baxanda vidalaşdığım o həzin günlərin kədəri içimə dolurdu. Qatar kupeləri mənə görə, doğmaları, yadları yırğalaya-yırğalaya uzaqlara aparan bir otaq, bir beşikdi. İllər sonra bu tunelə girdiyimizdə kupenin pəncərəsindən əl salladığımı xatırlayır və düşünürəm ki, bu mənim özünə stansiyadan baxan sərnişin kimi özünü yola salmaq istəyi idi. Uzaqlaşan qatarlar sanki mənim üçün uzaqlaşan adamlar idi. Bunları düşünə-düşünə otuz səkkiz yaşımda hələ də altıyaşlı uşağa çevrilməyimə sevinirəm. Çünki hər birimiz uşaqlaşdıqca məsumlaşır, məsumlaşdıqca dünyamızı gözəlləşdiririk.

Deyirlər, Zəngəzur yolu açılanda bütün qatarları ləğv edəcəklər, tək axırıncı qatardan başqa. O qatarı, yəqin ki, vağzalda muzey kimi saxlayacaqlar. Mən də qocalıb əldən düşənə qədər vəfalı sərnişin kimi darıxanda bilet alıb o qatardakı vaqonların birində əyləşəcəyəm. Pəncərədən çölə baxaraq bədənimi yırğalaya-yırğalaya xəyalən yola düşəcəyəm. Sonra yenə gözlərimi yumub Culfa Lokomotiv Deposunun maşinistləri olan Elxan Məmmədov və Tahir Abuzərovun qışqıra-qışqıra "Tələsin, tez olun, gecikirik" çağırışlarının sədası altında ürəyimdə təkrar-təkrar əyləşdiyim qatara pıçıldayacağam: "Bağışla, mən bilmədim, sən Salamməlik perronundan keçən sonuncu qatarsan!"

**"Şərq qapısı"**



# İnsan olmaq

*Yaşadığımız dünya yaxşılığın və pisliyin bağçasıdır. Burada hər şey ola bilər. Bura çox qəribə yerdir. Bu dünyada isə Tanrı tərəfindən "yaradılmışların əşrəfi" olaraq xəlq edilən, Onun yaratdığı "ən mükəmməl əsər" olaraq təyinlənən, şüurlu varlıqların ən alisi olaraq dəyərləndirilən İNSAN olmaqdır ən çətini. Mövlana Cəlaləddin Rumi insan olmağın mürəkkəbliyini, möhtəşəmliyini, çətinliyini və bəlkə də, acizliyini özünəməxsus şəkildə belə ifadə edirdi: "Biz elə bir məxluqlarıq ki, bəzən mələklər insan olmadıqlarına görə kədərlənir, bəzən də şeytanlar insan olmadıqlarına görə şükür edirlər".*

Yunan fəlsəfəsinə görə, insan hər şeyin ölçüsüdür. Özünü dərk edən insan hər şeyi dərk edə bilir. 2500 ildir ki, bəşər övladı yunan filosofu Sokratın "Delfiyanın Daş məbədi"nə həkk etdirdiyi "Ey insan! Özünü dərk et, özünü dərk etsən, varlığı dərk edərsən" kəlamını yerinə yetirməyə, özünü, dünyasını dərk etməyə can atır.

Müasir cəmiyyətlər özləri ilə özünəməxsus bir fenomen gətiriblər. İnsan əvvəlkindən daha çox insanla daha qısa, daha səthi münasibətlərə meyillidir. İnsan olmağın ən çətin tərəflərindən biri də budur, yəqin ki, düzgün münasibətlər qura bilmək, münasibətləri tarazlıqda saxlaya bilmək.

Hər insan bir hekayə, hər insan bitməyən bir mübarizədir. O hekayənin, o mübarizənin sonunda isə final həmişə eynidir. Məmməd Arazın "Bəlkə, bu yerlərə bir də gəlmədim" misrası isə həmin finaldakı insan olmağın nisgilini, kədərini və bəzən ümidsizliyini ən yaxşı şəkildə ifadə edib. Ən xoş günün içində, ən xoşbəxt anın hüdudunda kədərini də xatırlaya bilmək. İnsan olmaq da elə bu deyilmi?

"Həyat çoxun da şirin, həyat azın da şirin. Səni mənalandıran o keşməkeşlərindir", – deyərək Bəxtiyar Vahabzadə insan olmağın çətinliyinin həyatımıza qatdığı rənglərdən bəhs edirdi. Çətindir insan olmaq. Doğruluq, dürüstlük istər. Yaxşılıq, gözəllik istər. Səmimiyyət, vicdan istər, təvazökarlıq istər... Əsas o deyil ki, insan necə ölür, əsas odur ki, insan necə yaşayır.

"Gedən başqasını tapar, qalan özünü", – deyə bir fikir oxumuşdum. İnsan olmaq həqiqətənmi sənə dəyər verənləri, əzizlərini yarı yolda qoyub getməkdir? Yoxsa insan olmaq yarı yolda qoyulsan belə sənə arxa çevirib gedənə arxa çevirməməkdir? Bəlkə də, sənin onun arxa çevirib getməyəcəyinə əminlik yaratdığın insanların sənə qarşı duyduğu güvən, sevgi və dostluğu ruhunun dərinliklərinə qədər hiss etməkdir insan olmaq. Ya da insan olmaq hər dəfə yarı yolda qoyulsan da, yenə də güvənə bilmək, inana bilmək və sevə bilməkdir...

İnsan həm də heç kəsə bənzəməyən, özünəbənzər bir varlıqdır, fərddir. Onun öz istəyi, öz düşüncəsi, ürəyi var. Biz bu ürəyi yalnız gözəl hisslərlə doldurmağa qadir deyilik. Ruhun da istədikləri var; düşünmək, sevinmək, şənlənmək, hətta kədərlənmək, lovğalanmaq və sair...

Göründüyü qədər, yaxud da kəlmələrə sığışdırdığımız qədər asan deyil insan olmaq. Çünki bu, hər şeyin subyektiv olduğu bir dünyadır. Hər kəs özünü itirib səni günahlandıranda soyuqqanlılığını saxlaya bilsən, hamı səndən şübhələnəndə sən özünə güvənib bütün şübhələri tolerantlıqla qarşılaya bilsən, əgər səbirlə gözləyib və gözləməkdən yorulmasan, ya da sən böhtanla üzləşəndə yalana yalanla qarşılıq verməsən və kin tutana kin duymasan onda insansan. Çünki sevgi və dürüst inanc insanları bir-birinə yaxınlaşdırır. İnsanları uzaqlaşdıran isə ayrı-seçkilik, mühakimə və qərəzdir.

Dünyada ən yaxşı kimi tanıyırıq? Özümüzü, təbii ki, ya da belə zənn edirik. Bizdən bir başqası daha varmı? Qətiyyən yox. Düşüncələri, davranışı bənzər olanlar ola bilər, təbii ki, amma tamamilə eyni olanı yoxdur. Məsələn, bizim qırmızıya yanaşma tərzimiz hər kəslə eynidirmi? Deyil. Ağaca, suya, daşa, torpağa, havaya? Yox. Birini – bir insanı itirəndə, əslində, bir dünyanı itiririk. Gedənlər geri gəlmir və yerləri dolmur. Çünki insanlar gedərkən özləri ilə





böyük bir dünya aparırlar.

Hər insan bir dünyadır. Hər dünyanın öz qanunları, öz insanları var. Bir insanın içində olan başqaları onun təxəyyülünün məhsuludur. Real həyatda sevdiklərimizin bir obrazı var öz dünyamızda. Bir yaşlının içində bəzən bir uşaq, bir uşağın içində yaşlı bir insan yaşar. İnsan olmaq uşaqlığından yaşlılığına daşıdığın bir mesajdır. Yolda bu mesajı itirməməyə diqqət et. Bəlkə də, həyatın mənası o mesajın itməməsini təmin etməkdir. Qəlblər bunu yaxşı bilər. Bu cür yaşamda hökm ürəyin, tabeçilik isə ağılın olar.

Hər bir fərd təkrarolunmazdır, məna axtaran və məna yaradandır və özünü tapmaq üçün saysız-hesabsız güclü tərəfləri vardır. İnsan var dərya kimidir, baş vurdunsa, çıxmaq çətindir; insan var ki, di-





var kimidir, qarşında durur və heç nə görə bilmirsən; insan var ki, şüşə kimidir – dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna kimidir, səni özünə göstərməyə çalışır.

Uzun bir ayrılıqdır insanoğlu. Qəlbi öz yalnızlığına gömülmüş. Dünəni, bu günü, gələcəyi və bunun içində dünən yaşadıqları, bu gün etməyə çalışdıqları və gələcək üçün arzularıdır insanı insan olaraq var edən. Bu varlığın içində insanın ən çətin mübarizəsi özü ilə olan mübarizəsidir, özü ola bilmək mübarizəsi, insan olmaq mübarizəsi.

Bədii ədəbiyyatın, söz sənətinin bütün zamanlar boyu dəyişməz mövzusu, əsas predmeti insan olub. Bəxtiyar Vahabzadə ideal bir şəkildə bu mövzuya yekun vurur:



*İnsan! Təpədən dırnağa*
*sən arzu, diləksən,*
*Nəfsində doyumsuz,*
*fəqət eşqində mələksən...*

Yəqin ki, elə insan olmaq da budur: yaxşı ilə pisin arasındakı incə bir cizginin üstündə müvazinətlə addımlamağa çalışmaq. O tarazlığı qorumaq, yaxşıya doğru əyilmək və pisdən uzaqlaşmağa çalışmaq.

İnsan olmaq nədir? Ruhumuzun yarım olmamağı. Əbu Turxan bu barədə deyirdi: "İnsan bədəni dünyanın, kainatın bir zərrəsi olduğu halda, insan ruhu dünyanı, kainatı ehtiva etmək qüdrətindədir! Kainatın insan dünyasında tutduğu yer bəzən insanın kainatda tutduğu yerdən də kiçik olur". Buna görə də ruhumuz yarım olmasın, əlimiz-ayağımız onsuz da torpaq olacaq. Sizinlə sevinən, sizinlə ağlayan, dərdinizi yük edən, sirrinizi sirr bilənləriniz çox olsun. Yeridiyiniz yollar yaxşı insanlara çıxsın.

**Məmməd BABAYEV**

# Sağlamlıq imkanları məhdud uşaqlarda dulusçuluğa maraq yaradılır

*Ölkəmizdə dulusçuluq sənətinin çox qədim tarixi var. Mütəxəssislər bu sənətin yaranmasını Neolit dövrünə aid edirlər. İlk orta əsrların sonlarından başlayaraq dulusçuluq sənəti özünün yüksək inkişaf mərhələsinə gəlib çatıb. Həmin dövrlərdə saxsı qabların yayılması arealı Azərbaycanın, demək olar ki, bütün yaşayış məskənlərini əhatə edirdi. Bunu da arxeoloji qazıntılar zamanı ölkəmizin müxtəlif ərazilərindən tapılan dulusçuluq məmulatları – küp, səhəng, dolça, bardaq və digər saxsı nümunələri təsdiq edir.*



Bəşəriyyətin ilk və ən dəyərli nailiyyətlərindən biri də keramikanın kəşf olunmasıdır. Əvvəllər sənətkarlar gil qabları əlləri ilə hazırlayırdılar. Sonralar sadə formalı dulus çarxı meydana çıxdı.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində aplikasiya dərnəyində çalışan Püstə Əliyeva söhbət zamanı vurğuladı ki, 34 ildir, dərnək rəhbəri kimi fəaliyyət göstərir. Son 8 ildə isə daha çox sağlamlıq imkanları məhdud uşaqlarla çalışır. Sağlamlıq imkanları məhdud uşaqların valideynləri uşaqlarının cəmiyyətə qarışmasını, inkişaf etməsini, asudə vaxtının səmərəli keçməsini istəyirlər. Təbii istəkdir. Onlar da çalışırlar ki, valideynlərin istəklərinə dəstək olsunlar. Öyrəndik ki, Püstə müəllimin qrupunda 16 uşağın 14-ü sağlamlıq imkanı məhdud uşaqdır. Xanım Heydərova, Xəzəl İsmayılova, Təranə Əhmədli, Tofiq Həsənov və başqaları bu sənətə böyük maraq göstərirlər.

Püstə müəllim deyir: "İlk zamanlar dərnəyimizdə, əsasən, rəngli kağızlarla, düyü ilə əl işləri hazırlayırdıq. Düşündüm ki, qayçı ilə iş görmək uşaqlar üçün təhlükəlidir. Muncuqla və dulusçuluqla məşğul olmağa başladıq. Uşaqlara, əsasən, mövzunu özümüz seçirik, sərgilərimiz olanda isə mövzu verilir, üzərində işləyirik. Daha çox nağıl obrazları, Zəfər bayramı, Azərbaycan Bayrağı, butalar və sair mövzularda işləyirik. Dulusçuluq sənətində də eləcə".

Püstə müəllim uşaqların əl işlərinin sərgi-satışlarının təşkilindən də bəhs etdi: "Bu sərgilər uşaqları daha da həvəsləndirir, hər bir tədbirdə, sərgidə iştirak etmək istəyirlər. Biz də əlimizdən gələn dəstəyi göstəririk".

Sağlamlıq imkanları məhdud uşaqların gələcək həyatlarında onlara bir işıq yolu açıb, qayğı ilə yanaşmalıyıq. Evdə valideynləri, cəmiyyətdə isə biz onları bu keşməkeşli həyatda yalnız buraxmamalı, yanlarında olmalıyıq.

**Günay HACIYEVA**









# Günəşdən əvvəl oyananlar







Onlar qədim diyarın zəhmətkeş insanlarıdır. Günəş dağların arxasından boylanmağa macal tapmamış ondan əvvəl oyanıb alın tərini torpağa qatıb zəhmətlə öz günlük ruzisini qazananlar. Atalar, analar, oğullar, qızlar, gəlinlər... Kimi səhər erkəndən istixanaya daxil olub tərəvəz toplayır, kimisi inəyi sağıb pendir tutur. Günə erkən başlayanların bir çoxu isə mal-heyvanın qış tədarükünü toplamaq üçün tarlalarda yonca biçib, ot bağlamalarını toplayıb taya qururlar. Onlar illik ruzilərini torpaqdan qazanıb, torpağı qızıl bilib ovuclayırlar. Günəş doğandan batana kimi gününün çoxunu çöldə, tarlada keçirirlər. İndi ilin elə vədəsidir ki, gün çıxandan hava qaralanadək kənd adamını evdə-eşikdə tapmaq çətin olar, hamı çöldə-bayırda öz işi ilə məşğuldur: kimisi həyətyanı sahəsində, pay torpaqlarında işləyir, başqa birisi əkib-becərdiyi sahələrin məhsulunu toplayır. Torpaqla ünsiyyətdə olanların sevinci, fərəhi isə onunla bağlıdır ki, min bir zəhmətlə hasilə gətirilən məhsulla gün-güzəranını yaxşılaşdırırlar.











# Qızılgül çiçək açdı, bağça oldu, bar oldu







Gözəl bir yaz səhəri Günəş dağların arasından boylanmağa vaxt tapmamış biz də Günəşi salamlayan zəhmətkeş insanlarımızla birlikdə Şərur rayonundayıq. Bu gün haqqında danışacağım təsərrüfat sahibi Şərur rayon sakini Müqabil Zamanov illər öncə ailə təsərrüfatı qurub; 9 ildir ki, gülçülüklə məşğuldur. Onunla həmsöhbət olduğumuzda dedi ki, qızılgül mürəbbəsindən, gülabından söhbət düşəndə çoxumuzun ağlına ilk olaraq Ordubad rayonu gəlir. Uzun illərdən bəri formalaşan gülçülük bu rayonda inkişaf etdirilib və qızılgüldən müxtəlif məhsullar hazırlanıb. Bu sahəyə olan maraq illər keçdikcə digər rayonlarımızda da həmin sahənin inkişafına səbəb olub. Zəhmət adamı dedi ki, Şərur rayonunun torpaqlarının münbit olması işini daha da asanlaşdırıb. Rayonun Çərçiboğan kəndində yarım hektar sahədə qızılgül kolları əkdiyini deyən Müqabil Zamanov bildirir ki, əkdiyi qızılgüllər bir neçə ildir ki, məhsul verməkdədir. Əldə etdiyim məhsuldan gülab, araq, gül şirəsi hazırlayıram. Gül şirəsini içkilərə qatmaqla istifadə etmək olur. Bundan öncə bir çox meyvələrdən içki hazırladığını deyən müsahibim bildirdi ki, gülabı da xüsusi avadanlıqların köməyi ilə çəkir.

Öyrənirik ki, əvvəl qızılgül toplanılır, xüsusi mərhələdən keçirilir və süzülür. Bəzən gülab çəkənlər onun içinə müxtəlifrəngli və ətirli gülləri də qatır. Belə olan halda gülabın ətri yaxşı olmur. Gülab hər qızılgüldən çəkilmir. Bunun üçün qızılgülün kiçik ləçəkli növündən istifadə olunur. Ocağın üstündəki qazanda, təxminən, 6 kiloqram qızılgül ləçəyi, 6 litr də su var. Bu, saatlarla qaynamalıdır. Su qaynadıqca buxar bu borunun divarlarına hopur, boruya yaş parça sarıyıb, üzərinə də tez-tez su çiləməlisən ki, buxar borunun soyuq divarlarına dəyib, gülab damlalarına çevrilib digər qaba yığılsın. Gülabın rəngi saf, ətri gözəl olmalıdır ki, onu istifadə edən də faydalana bilsin.

“Gülab həm də müqəddəs sayılır” söhbətimizə ailə təsərrüfatının üzvü Mehriban xanım da qoşulur. O vurğulayır ki, adətən, yas mərasimlərində gülabdan daha çox istifadə edilir. Halvanın şirəsini gülabla hazırlayırıq. Bəzən umacını da gülabla ovurlar. Yas mərasimindən çıxıb evinə gedən insanların əllərinə gülab tökmək adətimiz var. Bu o deməkdir ki, evinizə xeyir, gül ətri aparın. Hüzndə olduğu kimi, toyda-bayramda da gülabın öz yeri var. Paxlavanın şirəsini gülabla hazırlayırıq. Qızılgülün mürəbbəsi və gülqəndi haqqında da söhbət açan müsahibim dedi:

“Qızılgül axşamın sərinində, ya da tezdən şeh gedəndən sonra yığılır. Hava yağışlı keçməsə, qızılgülün ləçəkləri daha gözəl olur. Gül toplandıqdan sonra təmizlənir. Soyuq su ilə yuyulub suyunu çəkməsi üçün sərin bir yerə qoyulur. Təmizlədiyimiz gül cecəsini bir qazana yığıb yuyuruq, sonra üzərinə yarım kiloqram gül cecəsinə beş stəkan qaynar su töküb dəmlənməyə qoyuruq. Hazırladığımız məhsul dəmlənir, həmin suyu başqa böyük bir qazana töküb qaynadırıq. Su qaynayandan sonra gül ləçəklərini içərisinə boşaldır, bir-iki buğum yenidən qaynadırıq. Həmin sudan yarım stəkan süzüb kənara qoyuruq. Sonra dəmləmə suda bir-iki buğum qaynayan gülün üzərinə beş kiloqram şəkər tozu əlavə edib qarışdırırıq. Hazır olana yaxın əvvəlcədən götürdüyümüz yarım stəkan gül suyunun içərisinə yarım çay qaşığı limon duzu əlavə edir və mürəbbənin içərisinə tökürük. Bu zaman mürəbbənin rəngi göz oxşayır. Bəzi xanımlar mürəbbənin rənginin yaxşı olması üçün boyaqdan istifadə edir. O da gül mürəbbəsinin dadını və rəngini xoşagəlməz hala sala bilir. Əsl gül mürəbbəsini yeyəndən sonra onun qırmızı rəngi dodağa, dilə çıxmır, amma bu boyaq atılan mürəbbəni yeyəndə onun rəngi dodaqda, dildə qalır. Nənələrimiz deyərdi ki, 7 il qalan gül mürəbbəsi dərmana çevrilir. O, mədədə olan yaraları sağaldır, sonsuzluğun qarşısını alır. Gül mürəbbəsinə kərə yağı əlavə edib lavaşla yeyiləndə dadı damaqda qalar”.

Gülqəndin hazırlanması ilə bağlı sualımı cavablandıran Mehriban xanım dedi:

“Təmizlənmiş gül hər kilosuna yarım kiloqram olmaqla şəkər tozu ilə ovulur, bankalara yığılır. Bir neçə il saxlanan gülqənd min dərdin dərmanıdır. Bundan başqa, yazda şəkərlə ovulan gülü qışda içərisinə azca su əlavə edib mürəbbə etmək də olar. Qızılgülün kompotunu da hazırlayan zəhmətkeş qadın bildirdi ki, bu çiçəyi qurudub qışa saxlayır”.

Söhbətə qoşulan Müqabil bildirdi ki, qızılgüldən bəhs edən çoxlu yazılar oxuyub, onun faydalı cəhətlərindən istifadə edir, yaxınlarına da tövsiyələr verir: “Qızılgül yağı, qızılgül dəmləməsi qədim zamanlardan müalicəvi vasitə kimi tanınır və geniş istifadə olunur. Qədimdə sinir sistemi, ağciyər, ürək, böyrək, dəri xəstəlikləri zamanı qızılgüldən hazırlanmış tinkturalar, yağlar, dəmləmələrdən çox geniş istifadə olunurdu. Dahi İbn Sinanın elmi əsərlərində qızılgül haqqında məlumatlar, müalicəvi reseptlər var. Qızılgülün yağı çox güclü stimullaşdırıcı, bərpaedici, cavanlaşdırıcı təsirə malikdir. Ürək-damar sisteminə çox müsbət təsir edir – ürək əzələsini möhkəmləndirir, aterosklerozun qarşısını alır, damarlarda spazmaları azaldır, ürək ağrıları zamanı faydalıdır. Sinir sisteminə sakitləşdirici təsir edir, nevroz, stres, depressiya zamanı çox xeyirlidir. Mədə-bağırsaq sisteminə antiseptik təsir göstərir, mikrobları öldürür, immun sistemini möhkəmləndirir. Angina zamanı müalicəvi təsir edir, başağrısını azaldır, orqanizmi cavanlaşdırır”.

Qədim Naxçıvanın hər qarışında bitən digər bitkilər kimi, qızılgülün də faydaları çoxdur. Ümumiyyətlə isə yurdumuzun bütün nemətləri Tanrının bizə bəxşişidir. Bu nemətləri artırıb çoxaltmaqla həm özümüzə, həm də yaxınlarımıza yaxşılıq etmiş oluruq.

✍ **Ramiyə ƏKBƏROVA**



# Milli qürurumuzun möhürü, yaxud papağı ver papaqçıya...

Naxçıvanın qədim məhəllələrindən birindəki balaca bir emalatxanada 45 ilə yaxındır ki, İsmayıl kişi papaq tikir. Sənətini ürəkdən sevən sənətkar gördüyü işdən həm pul qazanmağı, həm də zövq almağı bacarır. Onun tikdiyi papaqlar gözəlliyi, keyfiyyəti ilə seçilir. Ömrünü bu sənətə həsr edən usta hazır papaq nümunələri ilə yanaşı, sifarişçinin zövqünə, sənətinə uyğun papaqlar da tikir. Papaqçılıq sənətini bu gün də qoruyub saxlayan usta deyir ki, istənilən sənətdə olduğu kimi, ömrünü bu sənətə həsr etmiş insanda gərək həvəs, istək olsun. Bunlar olmasa, keyfiyyətli iş də ortaya çıxmaz. İsmayıl kişi deyir ki, papaq başa yaraşıq verir, ümumiyyətlə, Azərbaycan kişilərinə papaq çox gözəl yaraşır. Həm də papaq xalqımız üçün ta qədimdən cəsarət, ləyaqət, şərəf rəmzi olub, hörmət simvolu sayılıb.

İsmayıl usta bizə bu sənətin tarixi barədə də məlumat verir. Deyir ki, tarixboyu ölkəmizdə papağın bir çox növlərindən istifadə edilib. Onların müxtəlif formaları və özünəməxsus adları mövcud olub. Məsələn, oğlan uşaqları üçün hazırlanan papaqlara "tərlik" deyirlər. Ancaq tərlik papaq qədər qalın olmur və açıq-qırmızı rəngdə bir qat toxunan formaya malikdir. Bu papaq formasının Səfəvi hökmdarlarının "Qızılbaş" ordusundan qalması zənn edilir. Milli geyimlərimizin mühüm elementlərindən biri olan araqçını isə ictimai yerlərdə papaqsız taxmaq ədəbsizlik hesab olunurdu. Belə baş geyimlərinin forması həm də onun daşıyıcısının sosial vəziyyətinin göstəricisi sayılırdı. Məsələn, xalqımız arasında ən geniş yayılan papaqlardan biri də motal papağı olub. Ondan, əsasən, yoxsul təbəqəyə mənsub insanlar və çobanlar istifadə edərdi. Bəy zümrəsinin nümayəndələri və varlı təbəqə isə buxara papaq geyinirdi. Onları Buxaradan gətirilmiş dəridən konus şəklində və ya iti-uclu formada hazırlayırdılar. Belə papaqlar şəhər aristokratiyası üçün də xarakterik idi. Buxara papağa "şiş papaq" və ya "bəy papaqları" da deyilirdi.



Papaqçı onu da diqqətimizə çatdırır ki, papaqların hazırlanmasında müxtəlif növ materiallardan istifadə edilsə də, dəridən hazırlanan papaqlar daha çox üstünlük təşkil edir. İndi müasir dövrün tələblərinə uyğun olaraq yeni papaq növləri yaradılır. Əvvəllər kişilər daha çox buxara, çapma, şiş, sarıq kimi papaq növlərinə üstünlük verirdilər. Bu gün isə, əsasən, kepka tipli papaqları daha çox sifariş edirlər. Təbii ki, günümüzün dəb və zövqünə uyğun olaraq bu növlərin bir çoxu istifadə edilmir. Bununla belə yaşlılar arasında buxara papaqları tikdirmək istəyənlər də az deyil.

Qeyd edək ki, min illərlə yaşı olan papaqlarımız bu gün də öz dəyərini saxlayır. Hər il muxtar respublikamızda keçirilən xalq yaradıcılığı günlərində papaqçılıq pavilyonlarının açılması, tamaşaçıların bu nadir sənət nümunələrinə böyük maraq göstərməsi, el məclislərində milli geyimlərimizdən, o cümlədən baş örtüklərindən geniş istifadə edilməsi xalqımızın milli dəyərlərinə olan ehtiramından xəbər verir. Papaqlar məişət mədəniyyətimizdə elə dərin izlərlə kök salıb ki, ondan istifadə bu gün də aktualdır.

İsmayıl kişinin sözlərinə görə, papaqçılıq həmişə çətin olub, dünən də, elə bu gün də. Düzdür, qış aylarında işimiz pis olmur, şükür Allaha, özümüzü dolandırırıq, amma yay aylarında bir az çətindir.

İsmayıl usta hərdən yorulsa da, papaqçılıq sənətini seçdiyinə görə peşman deyil. Usta deyir ki, indi çox az adam papaq tikir, çünki çox az adam papaq qoyur. Amma nə yaxşı olardı ki, milli adət-ənənələrimizi, qədim papaqçılıq sənətini yaşatmaq üçün hər kəs ömründə bir dəfə özünə papaq tikdirib həm qarderobunu zənginləşdirərdi, həm də papaqlı babalarımızın ruhunu şad edərdi.

**Gülcamal TAHİROVA**



# Atı nalı saxlar...

## Qədim el sənətimiz nalbəndlik bu gün də yaşadılır



Zəngin tarixi mədəni irsə malik olan qədim Naxçıvan müxtəlif sənət sahələrini yaradan və min illər boyu yaşadan sənətkarları ilə zəngindir. Hazırda dövrün tələbinə görə qismən az istifadə olunan, lakin bir sənət sahəsi kimi hələ də yaşadılan nalbəndlik XX əsrin 50-ci illərinədək daha aktiv idi. İlk zamanlar dəmirçiliklə birgə inkişaf edən nalbəndlik sonrakı dövrlərdə ayrıca sənət sahəsi kimi formalaşmışdır. Yaşadığımız müasir dövrdə də bu sənət nalbəndlər tərəfindən yaşadılır. Bunlardan biri də 70 yaşlı Qurban Məmmədovdur.

Nalbəndin sorağı ilə yolumuz Şərur rayonunun gözqamaşdıran mənzərəsi, təmiz havası, ecazkar gözəlliyi ilə ruhumuzu, cismimizi oxşayan Danyeri kəndinə düşür. Kəndin ensiz yollarında soraqlaşa-soraqlaşa Qurban dayının evinə yaxınlaşırıq. Gülər üzü, şirin dili ilə bizi elə qapıdaca qarşılayan Qurban dayı və ailəsi bizi evlərinə dəvət edir. Bir az hal-əhval tutduqdan sonra Qurban Məmmədovu bu yaşa belə sağlam çatması münasibətilə təbrik edir, sənəti barədə söhbətə başlayırıq. Qurban Məmmədov deyir: "Elə dədə-babadan atlarla məşğul olmuşam, balaca vaxtlarımdan minikçi kimi yetişmişəm. 23 yaşımdan isə nalbəndlik sənəti ilə məşğul oluram. Atlara olan marağım məni bu sənəti öyrənməyə vadar etdi. Hazırda da bu sənət sahəsi ilə məşğul olur, kimə ehtiyacdırsa, onların atlarını nallayıram".

"Bu sənətə tələbat varmı?" sualımızın cavabında Qurban dayı bunları söylədi: "Bu sənətə tələbat vardır. Çünki at minən insan 45 gündən bir atı nallamalı, köhnə nal sökülməli və yenisi ilə əvəz olunmalıdır". Qurban dayı, həmçinin qeyd etdi ki, atın ayağı mütləq nallanmalıdır. Onun sözlərinə görə, necə ki insan ayaqqabı geyinmədikdə daş ayağı əzirsə, atın da ayağına nal vurulmadıqda ayağı daşlardan zədə alır.

Müsahibim nalvurma prosesində bıçaq, çəkic, kəlbətin, yonmaq üçün törpü, mismar kimi alətlərdən istifadə etdiyini bildirir və prosesi izah edir. Əvvəlcə atın ayağını iplə sarıyaraq bərkidir. Daha sonra atın ayağını təmizləyir, çıxıntıları yonur, nal vurur yanlarda artıq qalan hissələri kəsib çıxarırıq.

İki yaşından yuxarı atların nallanmalı olduğunu vurğulayan Qurban dayı qeyd edir ki, hər atın öz ayağının ölçüsü var və ölçüyə uyğun nal vurulur. Nisbətən yaşlı atlar da istifadəyə yararlı olduğu müddətdə nallanmalıdır.

Sənətinin çətinliklərindən bəhs edən müsahibim burada bir atalar sözünü dilə gətirir: "At təpiyinə at dözər". Qollarındakı mismarların şırım izlərini misal çəkərək deyir ki, buna baxmayaraq, bu sənətin çətinlikləri çoxdur, yenə də sevdiyim işlə həvəslə məşğul oluram.

7 illik yolyoldaşına çevrilmiş, rəngi ağ olduğundan "Ağgül" adını verdiyi Qarabağın Dilboz növü olan atını göstərərək deyir ki, bu yaşıma baxmayaraq, atımın arxasınca at gələ bilməz. Mənim atımı minməyə isə 50 nəfərdən 5-nin cəsarəti çatar.

Müsahibim atına və sənətinə o qədər bağlıdır ki, onlarsız özünü təsəvvür edə bilmir. Qədim el sənətimizi yaşadan ağsaqqala "Qolunuz qüvvətli olsun", – deyib sağollaşırıq.

**Türkanə ƏSƏDOVA**

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 127

Nömrəyə məsul: Ceyhun Məmmədov, Aidə İbrahimova, Rafiq Təhməzov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.